ƏRKDƏN SÖYLƏR

BU DİLİM

XX ƏSR ÖZBƏK ŞEİRİ ANTOLOGİYASI

BAKI - 2009

TÜRKSOY kitabxanası seriyası: 2

Tərtib edən:
Babaxan Məhəmməd ŞƏRİF

Özbəkcədən uyğunlaşdıran
və son sözün müəllifi:
Ramiz ƏSKƏR

Redaktoru və naşiri:
Rafiq BABAYEV

ƏRKDƏN SÖYLƏR BU DİLİM. (XX ƏSR ÖZBƏK ŞEİRİ ANTOLOGİYASI). Bakı, MBM, 2009, 184 s.

Antologiyada XX əsr özbək poeziyasının tanınmış nümayəndələrinin əsərlərindən seçmə nümunələr verilmişdir. Kitab 31 mart-4 aprel 2009-cu ildə İstanbulda TÜRKSOY tərəfindən təşkil olunan «Türk Ləhcələri Arasında Uyğunlaşdırma Çalışmalarının Bugünkü Durumu və Qarşılaşılan Problemlər» mövzusunda Beynəlxalq simpoziumun tövsiyələrinə və yekun bəyannaməsinə uyğun olaraq nəşr edilir.

İSBN: 978-9952-29-041-3

© MBM

AZADLIQ VƏ ƏDALƏT BAYRAQDARI

İnsanlıq tarixi hürriyyət və azadlıq uğrunda mübarizə tarixidir. Azadlıq və ərklik duyğusu millətin qanında, damarlarında daima coşaraq onun ruhunu yüksəklərə qaldırır. Xalqın qəlbindəki bu nəcib duyğu tarixi vəziyyət və şəraitdən asılı olaraq gah fırtına kimi təlatümə gəlir, gah da könüllərdə pünhan şəkildə özünə yer tapır. Cəmiyyətin yetkinləşməsi, azadlıq eşqinin millətin qəlbində kök salması, millətin və cəmiyyətin taleyinə real təsir göstərməsi baxımından poeziyanın rolu və yeri həmişə böyük olmuşdur. Son yüzillikdə meydana gələn bədii düşüncəmizdə və ədəbiyyatımızda buna dair çoxlu misal var. Dahi Əlişir Nəvainin yaratdığı ideal qəhrəmanlara nəzər salsaq, onların vətən və xalq yolunda özünü fəda edən, həqiqətin və haqqın təntənəsi uğrunda mübarizə aparan şəxslər kimi təsvir edildiklərinin şahidi olarıq. Sonrakı sənətkarlar isə öz əsərlərində həm ədalətli, azad və hürr həyat, həm də xoşbəxt güzəran arzularını dilə gətirdilər. Millətin ruhunu yüksəldən, haqq və ələlət qayələrini yüksək bədii məharətlə tərənnüm edən sənətkarları xalq heç bir zaman unutmadı, həmişə öz könlündə əzizlədi. XX əsrin əvvəllərində millətimizə istiqlal imkanı doğdu, milli özünüdərkin başladığı bir şəraitdə ədəbiyyat meydanı-

na atılan və azadlıq, müstəqillik, istiqlal nəğməkarı kimi tanınan Çolpan, Batu, Elbək kimi şairlər belə istedad sahiblərindən idi. Onların mənəvi aləmini, dünyagörüşünü anlamaq üçün həmin dövrə və mühitə nəzər salmaq lazımdır. Bu, mürəkkəb və fırtınalı bir dövr idi. Bir tərəfdən, xalqımızın mütərəqqi qüvvələri milli azadlıq hərəkatına başlayaraq müstəmləkə əsarətindən qurtulmaq üçün ölkənin hər tərəfində ciddi mübarizə aparır, ikinci tərəfdən, istiqlal hərəkatından təşvişə düşən, hakimiyyətə gəlmək niyyətini pərdələyən, Türküstanı və digər müstəmləkələri öz əlində saxlamağa çalışan bolşeviklər xalqı öz tərəfinə çəkmək üçün bərabərlik və azadlıq barədə bol-bol vədlər verir, üçüncü tərəfdən, «yerli xalqı 50 il tərəqqidən uzaq tutan» (1916-cı ildə Türküstanın general-qubernatoru N.Kuropatkinin etirafı) çarizmin müstəmləkə siyasəti nəticəsində cəmiyyət həyatında və ictimai fikirdə durğunluq, cəhalət və mütəəssiblik hökm sürürdü.

Türküstanın nicat yolunu axtaran Behbudi, Münəvvərkari, Fitrət, Çolpan, Übeydullaxoca, Abdulla Əvlani və digər ziyalılar müsibətli həyatın səbəbini elmsizlikdə, cəhalətdə görür, milləti maarifə səsləyirdilər. Millət üçün təhlükəli dövrün başlandığını əvvəlcədən görən Fitrət, Münəvvərkari, Çolpan kimi şəxslər doğrudan-doğruya istiqlala yönəldilər. Azad, ədalətli

və müstəqil cəmiyyət qurmaq arzusu bu ədiblərin əsərlərinin leytmotivinə çevrildi.

Əsrin əvvəllərində istibdad altında inləyən millətin faciəli durumu haqqında «Düşündüyüm zaman könlüm yanar, ağlamaq istərəm, göz yaşım axmaz» deyə yazan Fitrət 1917-ci ilin 27 noyabrında, yəni Türküstanın muxtariyyəti elan edilən gün öz hissiyyatını belə ifadə edirdi: «Əlli ildən bəri əzildik, təhqir edildik. Əlimiz bağlandı, dilimiz kəsildi. Ağzımız qapandı. Torpağımız basıldı. Malımız talandı. Şərəfimiz heçə sayıldı. Namusumuz qəsb edildi. İnsanlığımız ayaqlar altında tapdandı. Dözdük, səbr etdik. Gücə dayanan hər əmrə boyun əydik. Bütün varlığımızı əldən verdik. Yalnız bir fikri vermədik, gizlədik, imanımız kimi saxladıq. Bu–Türküstan muxtariyyətidir!» Mahmudxoca Behbudi isə 1919-cu ildə ölümündən əvvəl deyirdi: «Əgər bizim həyatımız hürriyyət və xalqın bəxti, səadəti üçün qurbanlıq kimi gərək olsa, biz ölümü də minnətdarlıqla qəbul edərik». O dövr özbək şeirinin bayraqdarı Çolpan isə «Qır qandalı, boyun əymə, çünki sən hür doğulansan» deyə hayqırırdı. Onlar hər şeydən əvvəl bolşeviklərin «xalqlara azadlıq, kəndliyə torpaq, fəhləyə zavod, sənətkara müstəqillik» vermək barədə vədlərinə aldandılar. Çünki proletar inqilabının rəhbəri Lenin özü «Biz, velikorus fəhlələri, öz hökumətimizdən tələb etməliyik ki, o, Monqolustandan,

Türküstandan, İrandan çıxıb getsin», bu xalqlara mədəni yardım, demokratiyaya keçmələrində kömək etməliyik deyir, xalqların azadlığı haqqında dekretlər verirdi. Axırda torpağı zorla əlindən alınan kəndliyə pasport belə verilmədi, o, təhkimli qula, dəyirmana qoşulan axta ata, müstəqilliyi payimal edilən sənətkar isə quruluşun məddahına çevrildi. Qorxu səltənəti münafiqlik əjdahasının dişlərini şumlanmış tarlaya səpdi. Nəticədə bu tarladan həqiqətə göz yuman əsgərlər yetişdi. İşin mahiyyətini anlayan ziyalılar isə qorxu səltənətinin dəhşətləri altında qaldılar. Adamlarda hakimiyyətə hörmət deyil, ondan qorxmaq, artıq bir söz deməkdən çəkinmək, bir-birindən bədgüman olmaq xəstəliyi hökmran oldu. Təəssüf ki, yaxşıların, hər biri özlüyündə şəxsiyyət olan istedadlı adamların birləşməsi çətindir. Pisliyə, xudbinliyə meylli adamlar tez dil tapdılar, birləşərək həyata, dövlət siyasətinə təsir etdilər. Belələri totalitar rejimin, qorxu səltənətinin dayağı oldular. Belə bir şəraitdə vətənpərvər ziyalılar şura idarələrində işləyərək milli ideyaya rəvac verməyə səy göstərdilər.

Zamanın ruhu Çolpanın şeirlərində olduqca parlaq və real şəkildə əks olunmuşdur. Şairin öz fikrini deklorativ tərzdə, yaxud o vaxt dəbdə olan şüarbazlıq yolu ilə deyil, bənzərsiz bədii ifadələr, yeni təşbeh və timsallar vasitəsilə bildirməsi xüsusilə qiymətlidir:

Göy üzünü qapqara, məşum buludlar sıx tutar,
O buludlar üstünə at tək minib devlər çapar,
Hər vuranda qamçısını odlar yaxar, şimşək çaxar,
O buludlar çapsalar devlər ilə asiman boyu,
Onda başlanar cin, albastı və şeytanlar toyu.

«Güllərinin solması», uzaq yolun bitməməsi, sonsuz bir yoxluq, könül bülbülünün qanadlarının sınması Çolpanı qayğılandırırdı, lakin onun dilində daim bahar qəsidəsi, qəlbində müstəqillik arzusu, bu yolda sonuna qədər mübarizə aparmaq əzmi hökmran idi:

Əlimdə süngü daş oldu,
Yağıya atmaq istərəm.
Gözümdə süngü yaş oldu,
Arzuya yetmək istərəm.

Xalqımızın özünü dərk etməsində, onun istiqlal uğrunda mübarizəyə qalxmasında Çolpan olduqca mühüm rol oynadı. O, Batu, Elbək, Aybək kimi istedadların ictimai-siyasi görüşlərinə, şeir üslubunun formalaşmasına ciddi təsir göstərdi. Elbək və Batunun bir sıra şeirlərinin Çolpanın şeirlərilə həmahəng olması heç də təsadüfi deyildi. Onlar Çolpanın yolu ilə gedərək xalqımızı öz müstəqilliyi, qədr-qiyməti üçün mübarizəyə səslədilər, odlu misralar yazdılar. Həyat həqiqətini düşünən, xalqa xidmət etməyi öz borcu sayan

Batu «Dəmirqazıq (Dan) ulduzuna» adlı şeirində belə yazırdı:

Qorxunc, cansız, səssiz, böyük qayğı-aləm çölündə,
Əzab ilə yorğun düşən mən yoxsula yol göstər.
O yol ilə bu gen çöldən uzaqlaşıb gedim mən,
Könlümdəki ən müqəddəs diləyimə yetim mən.

Batunun «qorxunc qayğı-aləm» çölünü dilə gətirməsi əbəs deyildi. Bu sözlər o dövrün reallığına işarə edir və şair «müqəddəs diləyi» olan istiqlala çatmaq üçün bu çöldən tezliklə uzaqlaşıb getməyin zəruriliyini hiss edirdi.

Elbək də öz şeirləri ilə Çolpana və Batuya səs verirdi:

Qəmli eldə, əsir eldə dustaqlar,
Qap-qaranlıq zindan içrə hücrələr.
Bir yel əsib onları da yalayar,
Vermək istər azad eldən müjdələr.

20-ci illərin ortalarında azadfikirliliyə buxov vuruldu. Müstəmləkəçilər və manqurtlar ideyaya qarşı ideya ilə deyil, balta ilə çıxdılar, vətən və millətin həqiqi mənafeyi üçün can qoyan alim, şair və ərdəmli insanları yox etmək, təzyiq altına almaqla kifayətlənmədilər. Ən dəhşətlisi budur ki, onlar fikirsizlik, mənəviruhi səfillik mühiti yaratdılar, millətə özünü tanıdan,

milli iftixar duyğusu aşılayan əsərləri yox etdilər və bağışlanması mümkün olmayan cinayət işlədilər.

Batu Moskva Universitetində oxuduğu zaman 1925-ci ildə yazdığı «Yolçu sözü» şeirində belə deyirdi:

Yurddan, eldən uzaqda
İstiqbal der yürürəm.
Bəs nə üçün duzaqda
Öz elimi görürəm.

Şair fəci hallardan iztiraba düşür, lakin ümidsizliyə qapılmır, müstəmləkə mərkəzində «gördüklərimin hər biri mənim üçün mükəmməl dərsdir» deyir, oxuduğu elmin «duzaq üçün bir yaraq» olduğunu açıq şəkildə söyləyirdi.

Azadlıq fikrini dilə gətirmək imkanı tapmayan qələm əhli öz duyğularını «qızım, sənə deyirəm, gəlinim, sən eşit» qəbilində ifadə etməyə məcbur olurdu. Fitrətin «Hind inqilabçıları», Çolpanın «Nil qızı», «Çin tərənələri» və Batunun «Qızıl Moskvada», «Mübarizə qığılcımı» kimi şeirlərində xalqımızın azadlıq, müstəqillik arzuları dilə gətirilirdi. Çolpan «Nil qızı»nda «Bütün həyatını bir zəhər sarmış, Fəllahın bəxtini kimlər oyadar», Batu «Ərk deyən ellərin çırağı sönmüş» və «Yağı gücü çoxaldı, yağıya yağı gərək, Ov izləyən yağıya ayı duzağı gərək» deyirdi.

İdeyasızlıq, mənəvi yoxsulluq mühitinin kəşfiyyatçıları rejimin açıq düşmənlərini məhv etdikdən son-

ra Fitrət, Çolpan, Abdulla Qədiri kimi düşünən beyinləri yox etməyə girişdilər. Cəza əcdahasının iştahı getdikcə artaraq quruluşun himayəçilərini və təbliğatçılarını da kamına çəkdi. Müstəbid sistem möhkəmləndikcə zülmünü artırdı, xalqı istibdada qarşı üsyana qaldıra biləcək vətənpərvər ziyalılar bu totalitar rejimin qurbanları oldular.

O dövrün ədəbi-ictimai mühitinə xas olan başqa bir xüsusiyyət də bu idi: cəza əjdəhası növbəti qurbanını öz kamına çəkdiyi zaman fəlakətə qarşı birləşmək yerinə «mən arığam, o kökdür» deyib özgələrini bada verməklə özünü qoruya biləcəyini düşünənlərin çox olduğuna tarix şahiddir.

Milli ruhlu şairlərin əsərlərinin qadağan edilməsi 30-cu illərin ikinci yarısından başlayaraq 60-cı illərin ortalarına qədər bütün şuralar məmləkətində olduğu kimi özbək ədəbiyyatında da ideya durğunluğuna səbəb oldu. Düzdür, bu dövrdə sənət nöqteyi-nəzərindən diqqətəlayiq əsərlər yaradıldı. Aybəkin «Özbəkistan», Qafur Qulamın «Vaxt», «Həsrət», Şükrullanın, Mintemirin bəzi qəzəlləri buna misal ola bilər. Lakin əsas etibarilə baxdıqda şairlərin əksəriyyətinin yalnız kommunist partiyasını tərənnüm etdiklərini, dəbdəbəbazlıq və mədhiyyəbazlıqla məşğul olduqlarını görürük. Hətta eşq lirikasında da başdan-başa yüksək pərdədəki şeirlərə yol verildi, qəm, həsrət, iztirab duyğu-

larının təsvirinə qadağa qoyuldu. Halbuki eşq, məhəbbət yalnız sevinc deyil. Eşq həm sevinc, həm də dərd və iztirab deməkdir. Bu, təbiidir. Lakin zoraki məfkurə dərdi, həsrəti real olmayan nəsnə elan etdi. Təkcə ədəbiyyat deyil, bütün sənət sosializm realizminin dəmir pəncələri altında qaldı. Rəssamlardan həyatı yalnız parlaq boyalarla təsvir etmək, xanəndələrdən təntənəli melodiyalar ifa etmək tələb olundu. Neçə əsrlik ədəbiyyatımız, musiqimiz, muğamatımız qəmgin, pessimist ruhlu elan edilərək yasaqlandı, bayağı ahənglər yüksək pərdələrdə səsləndirildi. Təbii ki, bu, sənətkarların deyil, azad təfəkkürə izin verməyən zəmanənin, qızıl imperiya məfkurəsinin eybi idi. Hər hansı nəsnə ümidində həyatı şən göstərən, hər tələbə ləbbeyk deyərək məddahlıq edən şairlər bütün dövrlərdə olmuşdur. Həyat müşküllərini görmədikləri, yaxud görmək istəmədikləri üçün onları qınamaq bəlkə də doğru deyildir. Xəlqi poeziya belə basmaqəlibə, qeyri-təbiiliyə qarşı mübarizədə möhkəmlənmiş və millətin qəlbindəki dərdləri poetik ifadələrlə ədəbiyyata, əsərlərə daxil etmişdir.

1956-cı ildə şəxsiyyətə pərəstişin ifşası nəticəsində keçmiş sovetlər ölkəsində bir az ilıq küləklər əsdi. İlıq küləklərin nəsimi Özbəkistana da gəlib çatdı. Ədəbiyyatda həyatı olduğu kimi, bütün əyər-əskiyi və mürəkkəbliyi ilə təsvir etmək tendensiyası bərqərar oldu.

Nəticədə 60-cı illərdə özbək ədəbiyyatında, xüsusilə poeziyada məşhur ədəbiyyatşünas Azad Şərafəddinovun dediyi kimi, «gözlə görünən canlanma meydana gəldi, ortaya çıxan bəzi yeni əsərlərdə azad təfəkkürün möhürü var idi». Bu dövrdə ədəbiyyata qədəm qoyan Erkin Vahidov, Abdulla Arifov, Aman Mətcan, Rauf Pərfi azad fikir, müstəqillik və ədalət bayraqdarı oldular. Erkin Vahidovun məşhur «Özbəyim» qəsidəsi və Abdulla Arifovun «Özbəkistan, vətənim mənim» şeiri millətə özünü tanıtmaqda xüsusilə mühüm rol oynadı.

Milləti öz qədr-qiyməti, şanı üçün mübarizəyə, alicənab məqsədlərə, xeyirli əməllərə səsləmək işində hər birinin öz avazı, öz yolu, özünə xas üslubu olan Abdulla Arifov, Aman Mətcan, Rauf Pərfi kimi şairlərin rolu hədsiz dərəcədə böyükdür. Abdulla Arifov «Qəribə dünyada haqsızlıq bəngü», «Xalqım, zaman ötdü, tale görmədin», «Çəkdiyim qəmləri bir-bir sanasam, ölü fironlar da atılıb qaçar», «Niyə bunca qəmgin neyin nəvası, Niyə qəlbim dolu, peşman və məlul», «Məyus ürəyində eşqin yarası», «Haqsızlıqdan məzlumun içə sığmasa dərdi», «Şəhidlərin qırmızı qanından Əlvan oldu qara donların, Qanla doldu kəfənim mənim, Özbəkistan, vətənim mənim» kimi obrazlı misralarla xalqın dərdini ifadə etmişdir.

Aman Mətcanın şeirləri poetik fikrin duruluğu və güclülüyü ilə əlahiddə yer tutur. Onun rəmzi obraz-

lar vasitəsilə fikir deməyə meyl etməsini ustad tənqidçi Ömərəli Narmətov təkidlə vurğulayır. Bu baxımdan şairin bəzi poetik məcmuələri («Quş yolu», «Devrilən ağac», «Yaralı şimşək» və s.) diqqəti xüsusilə cəlb edir. Məsələn, onun «Buğda» adlı şeirinə baxaq. Şair bu dörd misraya bir aləm məna sığdırmışdır:

Mən buğdaya bənzəyirəm, əllərinə al da məni,
Zər demə, zəfər demə, hikmət dolu ömrümə bax,
Gər bugün yerə məni gömsən, başımı tapdasan,
Sabah öz baş yerimə gəlləm tutub nizə-yaraq.

Aman Mətcanın publisistik ruhdakı şeirləri də, məhəbbət lirikası da xalqın dərdi ilə yoğrulmuşdur. Ədalətsiz zəmanədən şikayət edən şairin ürəyindəki dərddən xəbər tutan «lalələr fəryad salıb düzə bağrı qanlı çıxdı», şair «dünyanın şölələrə boyanmasını, qəmlərin, qayğıların unudulmasını, əcdadların həsrətinin gələcəyə keçməməsini» cani-dildən istəmiş, «eli, torpağı özgəyə əsir olsa, əbədi üsyanda, əbədi cəngdə» olacağını açıq şəkildə bəyan etmiş, tarla kənarında yuxulayan körpənin damarına həqiqət, cəsarət yeritməyi arzulamış, mürgüləyən, yatızdırılan xalqı oyatmaq üçün şairləri qorxunu yenməyə, həqiqətin gözünə dik baxmağa, ondan qorxmamağa səsləmişdir.

E.Vahidov, A.Arifov, A.Mətcan və R.Pərfinin şeirləri vətəndaşlıq poeziyasını yuxarı dərəcəyə qaldırmaqla yanaşı, vətən və millət uğrunda cəsarətlə mey-

dana girən gənc şairlərin kamala yetməsinə xidmət etdi, onlara münbit zəmin yaratdı. Nəticədə 80-ci illərdə özbək poeziyasına yeni bir dalğa gəldi, çoxlu şairlər yetişdi. Təbii ki, onları burada adbaad saymağa və əsərlərini təhlil etməyə imkan yoxdur. Lakin onların arasında Həlimə Xudayberdiyeva, Osman Əzimov, Şövkət Rəhman, Xurşid Dövran, Tahir Qəhhar, Əzim Suyun, Mirpolat Mirzə, Osman Qoçqar, Məhəmməd Yusif, Yoldaş Eşbək, İkram Atamurad kimi qabaqcıl şairləri göstərə bilərik.

Özbək şeirinin mövzu dairəsi xeyli genişləndi, bədii təfəkkür dərinləşdi, həyatın bütün mürəkkəbliyi ilə həqiqi təsvirinə cəsarət və həvəs gücləndi.

Həlimə Xudayberdiyevanın «Düşünmərəm» şeiri özbəyin haqqı, şərəfi üçün mübarizə manifesti adlandırıla bilər. Şairə «odsuz başı xəm, on beşində aciz, iyirmisində aşı xam (çiy)», «öz qəddini bükməyə alışan», «yağını basıb gəlməyən» övladından utanır.

Həlimənin «Şübhə» şeirini «Düşünmərəm» şeirinin məntiqi davamı hesab etmək olar. Turan torpağında həqiqi arslanların qalmamasından, onların gözlərini yağ basmasından şikayət edən şairə yazır:

Turan torpağını qoxlayıb, öpüb,
Həqiqi arslanlar bassalar ayaq,
Adam balasını doğrayıb, çapıb,
Ənik at oynatmaz burda bu sayaq.

Həlimənin şeirləri ədalətsizliyə, haqsızlığa, köləliyə qarşı sonsuz üsyan ruhu ilə doludur. Yalanı, saxtakarlığı və münaftqliyi ifşa edən misralar onun şeirlərində çoxdur. Bu, Osman Əzim və Şövkət Rəhmanın sənətinə də xas olan xüsusiyyətdir. Osman Əzim bütün ömrü məşəqqət içində keçən, öz rahatlığını, hətta doğma balasını unudaraq gecə-gündüz pambıq becərən, təkcə çay-çörəyə qane olan, «arxdan içdiyi su ciyərini şişirən», «arvadının döşündən süd əvəzinə zəqqum axan» özbək kəndlisinin zəbun həyatının realist təsvirini verdi. «Pambığa qəsidə» şeirində isə bu dehqanın ömrü özününkü deyil, pambığındır deməklə gerçəyi lirik qəhrəmanın dilindən kinayə ilə etiraf etdi. Bu da var ki, milyonlarla ton pambıq yetişdirən, lakin özünə pambıq xirqə almağa gücü yetməyən dehqan həyatını səthi təsvir edən əsərlərdən fərqli olaraq Osmanın şeirləri o vaxt açıq havada göy gurultusu kimi səsləndi. Şair «günün günorta çağı qəlblərə girən çılpaq fahişəyə–yalana» nifrət etdiyini göstərdi və bu nifrətini öz oxucuları ilə paylaşdı.

Şövkət Rəhmanın poeziyası isə lirik qəhrəmanın fövqəladə cəsurluğu ilə fərqlənir. O, zəhmətkeş xalqının zəbun vəziyyətə, köləlik dərəcəsinə düşməsinə acıyır. Bu xalq «işdən başı açılmayan, dövlətə ipək, pambıq, qaragül, altın, gümüş, mərmər verən», «ağzına basmaçı möhürü basılan», «ayaq üstdə yuxulayan»dır.

Zəbunluqdan qurtulmaq, haqq-hüquq uğrunda mübarizə aparmaq üçün isə «Zalıma dur-dayan demək lazımdır, adamlar torpaqda dolaşan yurdda».

Sözümüzə yekun vuraraq deməliyik ki, müstəqillik, azadlıq uğrunda mübarizə aparan poeziya prezidentimiz İslam Kərimovun rəhbərliyi və cəsarəti ilə 1991-ci ildə Özbəkistanın əldə etdiyi istiqlalın mənəvi zəminini hazırlamağa xidmət etdi. Bu poeziya eyni zamanda insan şərəfi, haqq-hüquq və ədalət uğrunda mübarizənin bayraqdarı kimi indi də öz milli missiyasını davam etdirir.

Diqqətinizə təqdim olunan bu kiçik həcmli məcmuədə özbək poeziyasının ötən əsrdə yaranan bəzi nümunələri toplanmışdır. Bu dövrdə özbək dilində gözəl şeirlər yazan yüzlərlə şair var, lakin əfsus ki, həcm məhdudiyyəti üzündən burada onların hamısını əhatə etməyə imkan yoxdur. Ümid edirik ki, gələcəkdə yeni və daha əhatəli nəşrlər hesabına bu çatışmazlıq aradan qaldırılacaq.

Əminik ki, bu kitabdakı şeirlər XX əsr özbək poeziyası haqqında Azərbaycan oxucusunda müəyyən təsəvvür yaradacaq. Yeri gəlmişkən deyək ki, Özbəkistanda Azərbaycan ədəbiyyatına, poeziyasına böyük rəğbət var. Çolpandan tutmuş bugünkü şairlərimizə qədər bütün qələm əhli Azərbaycan ədəbiyyatı ilə yaxşı tanışdır. Şairlərimiz qardaş Azərbaycan şairlərinin

əsərlərini indi də özbək dilinə çevirir, Azərbaycana gözəl şeirlər həsr edirlər. Qafur Qulam və Səməd Vurğun kimi böyük şairlərimiznin şəxsi dostluğu hər iki qardaş xalqa yaxşı məlumdur. Bəxtiyar Vahabzadə, Xəlil Rza kimi atəşnəfəs şairlərin əsərlərini özbək oxucuları sevə-sevə oxuyurlar. Azərbaycan oğlu Maqsud Şeyxzadə həm də özbəyin doğma övladıdır.

Gələcəkdə ədəbiyyatımızın orta və gənc yaşlı nəsilləri arasında əlaqələrin genişlənməsi üçün yaxşı imkanlar yaranmışdır. Bu imkanlardan səmərəli istifadə etmək qardaş xalqlarımız arasında qırılmaz telləri daha da möhkəmləndirəcək, ədəbiyyatlarımızın qarşılıqlı zənginləşməsinə kömək edəcəkdir. Buna heç bir şübhə yoxdur. Bu kiçik məcmuə də məhz həmin xoş niyyətlə hazırlandı. Onu azərbaycancaya uyğunlaşdıran əziz dostum, türk dünyasında yaxşı tanınan alim Prof. Dr. Ramiz Əskərə, nəşr məsələsini öz öhdəsinə götürən Dos. Dr. Rafiq Babayevə, bu işdə xidməti olan bütün fədakar dostlara ən səmimi minnətdarlığımı və şükranlarımı bildirriəm.

Babaxan Məhəmməd ŞƏRİF.
Daşkənd, iyun, 2009-cu il.

ÇOLPAN

(1898 – 1938)

Əbdülhəmid Süleyman oğlu Çolpan 1898-ci ildə Əndicanda sənətkar ailəsində anadan oldu. Əski məktəbi bitirərək Əndican və Daşkənd mədrəsələrində təhsil aldı, sonra rus-tatar məktəbində oxudu. Ərəb, fars, türk və rus dillərini mükəmməl öyrəndi. Əsrin əvvəllərində cədidçilik hərəkatı onun dünyagörüşünün formalaşmasına böyük təsir göstərdi. 16 yaşından şeir yazmağa başlayan Çolpan ədəbiyyatda xalqın istiqbalı və iqbalı üçün maarifçilik işi apardı, sonra isə milli müstəqillik və azadlıq hərəkatına qoşuldu. Özbək şeirini ən yüksək zirvəyə qaldıran şair həm də özbək nəsrinin banilərindən biri və klassik dünya ədəbiyyatı nümunələrini özbəkcəyə çevirən mahir tərcüməçidir. Çolpan özbək poeziyasının parlaq nümunəsi olan çoxlu şeirin, «Gecə və gündüz» romanının, «Parlaq ay» pyesinin və digər əsərlərin müəllifidir. Dahi şair yaradıcılığının ən çiçəkləndiyi dövrdə millətçilikdə və əksinqilabi fəaliyyətdə günahlandırılaraq 1938-ci ildə qızıl imperiya tərəfindən qətlə yetirildi.

XALQ

Xalq dənizdir, xalq dalğadır, xalq gücdür,
Xalq üsyandır, xalq alovdur, xalq öcdür...
Xalq yerisə, güc yoxdur ki, toxtatsın,
Qüvvət yox ki, xalq istəyin yox etsin,
Xalq üsyanı səltənəti yox qıldı,
Xalq istədi, tac və taxtlar yıxıldı...

Xalq istər ki, azad olsun bu ölkə,
Getsin onun başındakı bu kölgə,
Bir çalxanar, bir köpürər, bir qaynar,
Bir atılar, bir sıçrayar, bir oynar,
Yoxluğu da, aclığı da yox edər,
Öz yurdunu hər nəsnəyə tox edər...

Bütün gücü xalq içindən alımalı!
Qucaq açıb xalq içinə dalmalı!

Buxara, 1921

MƏN VƏ BAŞQASI

Özbək qızının dilindən

Gülən başqasıdır, ağlayan mənəm,
Oynayan başqası, inləyən mənəm.
Azadlıq dastanı eşidən odur,
Kölelik şeirini dinləyən mənəm...

Onun qanadı var, göylərə uçar,
Şahlara həmdəmdir, məskəni bağlar.
Sözləri sədəf tək, avazı ney tək,
Nəğməsi hər eldə-obada çağlar.

Məndə də qanad var, lakin bağlıdır...
Bağ yoxdur, şah yoxdur, qalın divar var.
Sözlərim sədəf tək, avazım ney tək,
Nəğməm var... onu da dinlər divarlar.

Başqası azaddır, mənsə zindanda,
Məndən dəyərlidir, vallah, heyvan da.

Daşkənd, 1921

KÖNÜL

Könül, söylə, görüm niyə,
Qandal ilə dostlaşıbsan?
Nə fəryadın, nə ahın var,
Niyə belə süstləşibsən?

Həqarət dili ağrıtmaz,
Qandallılar yorulmazmı?
Bu qandallar parçalanmaz?
Bu qılınclar qırılmazmı?

Sən dirisən, ölməmisən,
Sən canlısan, sən insansan,
Qır qandalı,
boyun əymə,
Çünki sən hürr doğulansan!

Daşkənd, 1922

BİR TUTAM SAÇIN

Bir tutam saçın var mənim əlimdə,
Sıxaraq öpümmü, tel-tel açımmı?
Sirr kimi saxlayım onu qoynumda,
Yoxsa çıxararaq yelə saçımmı?

Saçılan saçın tək saçılsa sirrin,
Nar üzlüm, de görüm sən nə edərsən?
Sən özün «onlarda vəfa yox!» dedin,
Yoxsa vəfasıza tərəf gedərsən?

Açılan qoynumda bir parça tənin
Ordan gül rayihən, ətrin gəlməsə,
Mənə yaxınlaşma, ey canlı busə!
«Sevirəm» deməyin yalandır sənin!..

Daşkənd, 1925

ELBƏK

(1898 - 1939)

Elbək (Məşriq Yunusov) 1898-ci ildə Daşkənd vilayətinin Bostanlıq qəzasında anadan oldu. Yoxsulluq üzündən 1911-ci ildə Daşkəndə köçüb gələrək fəhləlik elədi. Boş vaxtlarında məktəbdə oxudu. Sonra mətbəədə çalışdı. 1920-ci ildən texnikumda, mədəni quruculuq institutunda müəllimlik etdi. 1917-ci ildən şeir yazmağa başladı. «Turan», «Türk sözü», «Ulu Türküstan» adlı ilk şeirlərindən millət və xalq dərdi ilə yanan şair kimi nəzərə çarpdı. Elə bu səbəbdən də qızıl imperiyanın qəzəbinə tuş oldu, 1937-ci ildə həbsə alınaraq uzaq və soyuq Maqadana sürgün edildi və orada vəfat etdi.

MÜJDƏLƏR

Yel gəzər, yellər gəzər, yellər gəzər,
El sezər, ellər sezər, ellər sezər.
Bu dəniz suyunu hər yana vurar,
Kef çəkər, ləzzət alar, dövran sürər.

Yel gəzər, yellər gəzər, yellər gəzər,
El sezər, ellər sezər, ellər sezər.
Öyünər güclü dağlar yolu bağlar,
Qara yel güclü əssə qolu bağlar.

Coşaraq intiqam almaq istəyən
Dağlar artıq sakit-səssiz dayanar.
Nərə çəkib yel də getmək istəyər,
Hər tərəfə qalib kimi at salar...

Qəmli eldə, əsir eldə dustaqlar,
Qap-qaranlıq zindan içrə hücrələr.
Bir yel əsib onları da yalayar,
Vermək istər azad eldən müjdələr.

Durmaz, gecə-gündüz sel təki daşar,

Tələsər, dağları, suları aşar!
Yel gəzər, yellər gəzər, yellər gəzər,
El sezər, ellər sezər, ellər sezər.

DİL

Qəmli quşum, cəh-cəh vurub gəl söylə,
De kimlərdir türk dilini satanlar?
Bülbül kimi cəh-cəh vuran bu dili
Utanmadan bu ölkədən atanlar?
Baldan şirin, candan əziz türkcəni
Düşünmədən qəflət içrə yatanlar?

Oxu, quşum, yax onların canını!
Göylərə yay türk dilinin şanını!
Burax, onlar yoldan azıb batsınlar,
El içində boşboğazlıq satsınlar!

BATU

(1904 – 1938)

İstedadlı şair və dövlət xadimi Batu (Mahmud Hadiyev) ərk və azadlıq, istiqlal nəğməkarı kimi tanınır. O, 1904-cü ildə Daşkənddə bezçi ailəsində anadan oldu. Rus-tatar məktəbində oxudu. Batunun ictimai-siyasi dünyagörüşünə, estetik idealının formalaşmasına məşhur şair Çolpanın, ədib və alim Fitrətin böyük təsiri oldu. Əmək fəaliyyətinə çox erkən başlayan Batu 1921-ci ildə «Fərqanə» qəzetinə müxbir kimi işə qəbul edildi, 1922-ci ildə Moskvaya oxumağa göndərildi. 1923-27-ci illərdə Moskva Dövlət Universitetinin iqtisad fakültəsində oxudu. Özbəkistana qayıtdıqdan sonra müxtəlif məsul vəzifələrdə çalışdı. 20-ci illərdə Batu «Ümid qığılcımları» və «Dalğa səsləri» adlı şeirlər kitabını nəşr etdirdi. O, qızıl imperiya idarələrində işləyərək onun məfkurəsinə əsərlər həsr etsə də, qorxu səltənəti bu gənc istedadı vaxtından əvvəl soldurdu. Batu

26 yaşında xalq maarif komissarı vəzifəsində işlədiyi zaman həbs edildi və səkkiz il zindan əzabı çəkdikdən sonra 1938-ci ildə qətlə yetirildi.

SORMA!

Sorma niyə bu gözlərdə odlu yaşlar qaynaşmada?
Sorma niyə bu çöhrədə min bir qayğı oynaşmada?
Sorma niyə məcnun könül dərd içində qovrulmada?
Sorma niyə məhzun xəyal bir boşluğa sovrulmada?
Sorğulara cavab vermək - qəlb sirrini açmaq demək,
Dərdli qəlbin vulkanından odlu lava saçmaq demək,
Lava saçmaq təhlükəli- varlığı yox etmək demək,
Mərhəmət yox, doğruluq yox, bu dünyadan getmək gərək.
Dərdsizlərə öz dərdini demək olmaz bir söz ilə,
Eləcə də al günəşi görmək olmaz kor göz ilə.

17 sentyabr 1921

YOLÇU SÖZÜ

Yurddan, eldən uzaqda
İstiqbal der yürürəm.
Bəs nə üçün duzaqda
Öz elimi görürəm.

Uzaq və yad yollarda
Dürlü müdhiş görünüş.
Bu zor, ulu dünyada
Yaşam üçün yüyürüş.

Fəci hallar ürəkdə
Sönməz izlər daşıyır.
İstiqbalçün qəlblərdə
Ulu sirlər yaşayır.

Gördüklərim hər biri
Mənim üçün bir maraq.
Bildiklərim hər biri
Duzaq üçün bir yaraq.

2 mart 1925

XƏZƏR DƏNİZİNƏ

Mən də sən kimi şux, sən kimi məğrur,
Məni «mənliyə» əsir edə bilməz bu qürur.
Çünki mən,
almışam
Bu qururumu,
Bu sururumu
Şanlı vulkandan,
Sonsuz üsyandan.
Əski dünya yıxılan andan.
Mənim könlümdə də fırtına var,
Fırtınalar!
Çünki fırtına məndir, mən də fırtınayam,
Fırtınasız yandıramam!
Üzü sakit, özü lal,
Sirli göldə nə edərdim,
Şübhəsiz, ondan uzaqlara gedərdim.
İndi mən ondan uzaqda,
Fırtına tərəfdə
Sənin çöhrəndə bugün
Sirli göllər kimi sakit əssə də,
Mənə yaşlı gözlər ilə az bax desə də,
Biləcəyəm mən, biləcəyəm,

Kükrəsə dolu dalğa,
Onu sənə verəcəyəm.
Mənim eşqim sənə müştaq oldu,
Baxışım fırtına izləyib durdu.
Sənə baxınca bu gənclik sevinər,
Bilmədim, bəlkə bəziləri üzülər.

12 iyun 1929

QAFUR QULAM

(1903 - 1966)

Özbəkistan Elmlər Akademiyasının akademiki, Özbəkistanın xalq şairi Qafur Qulam 1903-cü ildə Daşkənd şəhərində dehqan ailəsində dünyaya gəldi. Ata-anadan yetim qaldığı üçün əmək fəaliyyətinə çox kiçik yaşlarda başlamaq məcburiyyətində qaldı. Məktəbdə müəllim, müdir oldu, sonralar müxtəlif qəzet və jurnallarda çalışdı. Qafur Qulam istedadlı şair, məşhur nasir, dramaturq, tərcüməçi kimi ad-san qazandı. O, Şekspirin «Otello», «Kral Lir» əsərlərini özbək dilinə böyük məharətlə tərcümə etdi.

1966-cı ildə Daşkənddə vəfat etdi.

VAXT

Qönçənin açması bir göz qırpımı,
Kəpənək ömrü də elə o qədər,
Bəzən də bir nəfəs alıb-verincə
Min ulduz sönərək göyü tərk edər.

Həyat saatının altın kəfkiri,
Hər gediş-gəlişi bir aləm zaman.
Kainat bir anda çıxar mehvərdən,
Bir anda yenidən yaranar cahan.

Yarımca saata doğulub, bitən,
Yaşayıb, ömr edən nə qədər şey var;
Göz açıb yumunca ötən zamanın,
Bir anın məzmunu bir bütöv bahar.

Bir anın qədrini ölçməyə bizə
Altından tərəzi, almasdan daş az.
Nurlar qədəmilə çapar saniyə,
Yerini tutammaz gurultu, avaz.

İgid xoş göründü qızın gözünə,
Kirpik süzülüşü, zərif təbəssüm...
Qoşa qarımağa səbəb olacaq
Həyatda iki ləb qovuşan bir gün.

Həyat darvazası astanasından
Zərli kitab kimi açılar aləm,
İnsanın bəzəyi möhnət, məhəbbət,
Fürsətdir eləyək əziz, mükərrəm.

Qiymətli dəmlərin şahidiyik biz,
Hər anı keçmişin yüz ili qədər.
Özbəyin sevimli övladlarının
Hər nəfəs məzmunu göyə bərabər.

Qətrədə asiman əks edən kimi,
Cahan tək mənalı göz bəbəyimiz.
Qalib əsrimizə günəşdən məşəl,
Onunla görürük zəmanəni biz.

Zəmanə saatı zəng vurar müdam,
Min olay qeyd edər bir dəqiqədə,
Qəhrəman doğuldu, şəhər alındı,
Min olay baş verdi yeddi qitədə.

Reyxstaq üstünə zəfər bayrağı
Pisliyə oxunan bir hökm, qərar -
Bəşərin müqəddəs, ali hüququ
Bir anın içində oldu bərqərar.

Zəfər əmri ilə məğlub almanın
Marşalı qul oldu üç anlıq fəqət...
Bu məlun imzada adamlar oxur
Million il faşistin ömrünə lənət.

Əziz əsrimizin əziz anları
Əziz adamlardan alsın qiyməti.
Həyat dəftərini şah sətrlərlə
Bəzəyək, verməyək əldən fürsəti.

Şöhrət qazanmağa Herostrat tək
Diana məbədi yaxmaq xətərli.
Çoxunun bəxtinə ulu binaya
Tək bircə kərpic də qoymaq yetərli.

Bir ləhzə, bircə an ömr tək uzun,
Bir əsrin taleyi bir ləhzədə həll,
Ömrdən ötəcək hər ləhzə üçün
Qüdrətli əl ilə dikilər heykəl.

Həyat şərabından bir udum udaq,
Dəmlər qənimətdir, deyilmi, saqi.
Günəş ki, fələkdə dövr edir hələ,
Ömrümüz əbədi, ömrümüz baqi.

AYBƏK

(1905 - 1968)

Ünlü şair və romançı, Özbəkistan Elmlər Akademiyasının akademiki, Özbəkistanın xalq yazıçısı Musa Taşməhəmməd oğlu Aybək 1905-ci ildə Daşkənd şəhərində toxucu ailəsində anadan oldu. Əvvəlcə əski, sonra yeni məktəbdə oxudu. 1925-ci ildə Orta Asiya Dövlət Universitetinin iqtisad fakültəsinə daxil oldu, 1927-ci ildə Leninqrad Xalq Təsərrüfatı İnstitutuna keçdi və 1930-cu ildə ali təhsilini tamamladı. 1935-ci ilədək Orta Asiya Dövlət Universitetində dərs dedi. Özbəkistan Yazıçılar İttifaqının sədri, «Şərq ulduzu», «Özbək dili və ədəbiyyatı» jurnallarının baş redaktoru, Dil və Ədəbiyyat İnstitutunun direktoru oldu. 30-cu illərdə Çolpanın başı üzərində qara buludlar dolaşanda Aybək onu himayə etdi. Sonra özü də millətçilikdə günahlandırılaraq təzyiqlərə məruz qaldı. «Duyğular» adlı ilk şeirlər məcmuəsi 1926-cı ildə nəşr olundu. Sonra onlarca kitabı çıxdı. Ən məşhur əsəri olan «Nəvai» romanına görə 1946-cı ildə Dövlət mükafatına layiq görüldü. 1968-ci ildə vəfat etdi.

ALTIN BÖCƏK

Burax, altın qanadını bağlama,
Şıltaq könlü çiçəklərlə oynasın.
Əsir edib hür qəlbini dağlama,
Bir az gülüb ləçəklərlə oynasın!

Ana bahar hər tərəfə nur saçmış,
Bağçalarda dürlü güllər, çiçəklər.
Altın üzü sanki günəş tək açmış,
Ləblərindən öpər quşlar-mələklər.

Altın böcək, qanadların sıyrılmış,
Yenə sevgi dərdini vəsf eylə sən.
Yanıq dilin pərilərdən ayrılmış,
Danış, mənə dərdlərini söylə sən.

Ayağına ip taxılmış, gəl açım!
Sən də bir az yarpaqlarda cəh-cəh vur,
Azadlığın yollarına gül saçım,
Ruhum üçün nəğmə oxu bir hovur!

Altın böcək, ipi açdım, göyə uç!
Sevdiyinin üz-gözündən öpüb, quc.

YAR GETDİ

Yar getdi, gözüm bulaği qaldı,
Sinəmdə canlı fərağı qaldı.
Eşq xatirəsi kimi saçımın
Gənclikdə çoxalan ağı qaldı...

Hər ləhzə dilü xəyal pərişan,
Bircə ah çəkməmdə dərdlər ümman.
Ulduz kimi gecə parlar can,
Gecə tək saçı, iştiyaqı qaldı...

26 iyul 1942

UYĞUN

(1905 - 1990)

Özbəkistanın xalq şairi Uyğun (Rəhmətulla Ataquziyev) 1905-ci ildə Qazaxıstanın Cambul vilayətinin Mərki kəndində dünyaya göz açdı. 1927-1930-cu illərdə Səmərqənddəki Pedaqoji Akademiyada oxudu. «Bahar sevincləri» adlı ilk şeir kitabı 1929-cu ildə çap olundu. Sonralar çoxlu şeir kitabları, dramları, rus və dünya ədəbiyyatından tərcümələri nəşr edildi.

1990-cı ildə Daşkənddə vəfat etdi.

YAĞMUR YAĞDI...

Bu yağmur başladı pıçıltı kimi,
İslandın cimcimə, başdan-ayaq nəm.
Yağmur toxunduqca kirpiklərinə,
Al oldu lalə tək yanaqların həm...

Köynəyin təninə yapışdı tamam,
Qəddi-qamətini çıxardı üzə.
Qabarmış köksün də ahəstə qalxdı,
Bu hüsnün gəlməsin heç zaman gözə!

Durmadan tökülən o gur yağmurun
Sərin damlaları dəydi üzünə.
O titrək ləbində həzin təbəssüm,
Gözəl görünürdü aləm gözünə.

Ehtimal qıy vurur könlündə şadlıq,
Ehtimal qəlbindən uzaqdadır qəm...
Yadımda qalacaq bu səfalı an,
Çıxmaz xatirimdən bu sehrli dəm...

O şux gözlərinə mıxlandı qəlbim,
Səhra laləsi tək yağmurda qaldın...
Yetişkin, kamallı, cavan, gözəl qız,
Ötən gəncliyimi yadıma saldın...

MAQSUD ŞEYXZADƏ

(1908 - 1967)

Məşhur şair, və ədəbiyyatşınas, mahir tərcüməçi, Özbəkistanın əməkdar incəsənət xadimi Maqsud Şeyxzadə 1908-ci ildə Azərbaycanın Ağdaş şəhərində anadan oldu. Daşkəndə köçdükdən sonra Pedaqoji İnstitutda dərs dedi. «Layiq saqçı» («Layiqli qoruyuju») adlı ilk şeir kitabı 1932-ci ildə çap olundu. Daha sonra onlarla kitabı nəşr edildi. «Cəlaləddin Mənqüberdi» və «Mirzə Uluğbəy» dramlarının müəllifidir. Puşkinin, Lermontovun, Şekspirin, Nazim Hikmətin və başqa ədiblərin əsərlərini özbək dilinə çevirdi.

Maqsud Şeyxzadə 1967-ci ildə Daşkənddə vəfat etdi.

ŞEİR GÖZƏLLİYİN BACISIDIR...

Şeirsiz hər qəlbə acıyıram mən,
Onda nə gün doğar, nə gündüz başlar,
Nə gecə ulduzlar yayılar göyə,
Nə bahar çağında oxuyar quşlar.

Şeirsiz evlərə gülüş axmadı,
Xanədan əhlinin gülmədi üzü.
Hətta pəncərədən günəş baxmadı,
Elə bil dayandı zamanın özü.

Şeirsiz küçəni tale qarğamış,
Bu yerdə sevginin mənzili dardır...
Şeirlə şənliyin keyfi yuxarı -
Burda küdurətin nə işi vardır?

Biçarə aşiqlər, bilməz ki onlar,
Şeir gözəlliyin tərənəsidir.
Hər kim ki onunla sevişsə əgər -
Hüsnünə qoşulan nəğmə bəsidir.

Şeir diyarının şairləri biz,
Hər evə, hər qəlbə yar olsun beytlər!
Elə dəstək olsa şeirlərimiz,
Demək ki, ömrümüz ötməmiş hədər!..

HƏMİD ALİMCAN

(1909 - 1944)

Özbəkistan Elmlər Akademiyasının müxbir üzvü Həmid Alimcan 1909-cu ildə Cizaq şəhərində anadan oldu. Səmərqənddəki Pedaqoji Akademiyada oxudu. Daşkənddə müxtəlif ədəbi jurnalların redaksiyalarında, Dil və Ədəbiyyat İnstitutunda işlədi. 1939-cu ildən 1944-cü ilə qədər, yəni ömrünün sonuna kimi Yazıçılar İttifaqının sədri oldu. «Bahar» adlı ilk şeir məcmuəsi 1929-cu ildə çap edildi. Puşkin, Tolstoy, T.Şevçenko və başqa müəlliflərin əsərlərini özbək dilinə çevirdi. Avtomobil qəzası nəticəsində gənc yaşda həyata vida etdi.

QƏZƏL

Nə olar bir nəfəs mən də yanağın üzrə xal olsam,
Ləbin yarpağından daman guya bir qətrə bal olsam.

Budağına qonub bülbül kimi avaz qılıb gecələr,
Öpüb qönçəni, açınca dan çağı şəmal olsam.

Boyunu tərk edib aləmi qılsam məsti-müstəğriq,
Özümün sənətimə son özüm heyrətdə lal olsam.

Sənin ilə qalıb bu məstü lal aləmdə mən yalqız,
Özümü həm itirmək meylinə, axır xəyal olsam.

Əgər bağında gül olmaq mənimçün narəva isə,
Ki min qat razıyam qəsrinə hətta ki düval olsam.

Başım heç çıxmasa meyli-məlamət ilə böhtandan,
Rəqiblər rəşkinə köks gərməyə meyli-kəmal olsam.

Gəzib səhrayü vadilər, yetişsəm bir vüsalına,
Fəda canımı qıldım yoluna, meyli-üval olsam.

MİRTEMİR

(1910 - 1978)

Özbəkistanın xalq şairi Mirtemir (Mirtemir Tursunov) 1910-cu ildə Qazaxıstanın Türküstan şəhərində anadan oldu. Daşkəndə köçüb gəldikdən sonra Pedaqoji Akademiyanın dil və ədəbiyyat fakültəsində oxudu. 1929-cu ildən görkəmli dövlət xadimi Yoldaş Axunbabayevin katibi işlədi. 1932-ci ildə Batu, Altay kimi «millətçi» şairlərlə əlaqədə günahlandırılaraq həbs edildi. Həbsdən çıxdıqdan sonra müxtəlif qəzetlərdə, radio və nəşriyyatlarda çalışdı. Bir müddət Yazıçılar İttifaqında işlədi. «Şölələr altında» adlı ilk şeir kitabı 1928-ci ildə nəşr edildi.

GULGÜÇÜ

Gözü sürməliciyəz,
Köksü bürməliciyəz.
Gülgüçü var, gülgüçü,
Yaxa düyməliciyəz.
Gülgüçü, ax, gülgüçü,
Nazik əda, yox ağlı,
Hansı dərənin gici,
Dəf olsun, bağrı dağlı.
Gülgüçü var, özü şux,
Ərkəsöyündür yaman,
Hər baxışı guya ox,
Lakin qəlbi mehriban.
İgid gözündə lalə,
Qırx yaşında, həm xumar.
Tam mey dolu piyalə,
Sehirli xisləti var.
Ağzı kiçik bir oymaq,
Dili sanki bal, qaymaq.
Beləsinin sözündən
Söylə, olarmı doymaq?
Ürək dərdinə yetik,
Başın ağrısa əgər,
Tez yetişər köməyə,

Bu arsız, bu hiyləgər.
Bir kiməsəyə borcu yox,
Xəznəçi tək könlü tox.
Nə yaxşı gəldi bizə,
Həkimliyi möcüzə.
Lap sağaltdı məni həm,
İynəsi çox şəfalı.
Ondandır sadə, öktəm,
Gərçi bir az cəfalı.
Dərhal öyrənməlisən
Unutmayasan qəti.
Özəlliklə bu işlər
Şeyda igidə çətin!
Gülgüçüdən çox dedik,
Qoşduq ona xeyli söz,
Gözləri baxırdı dik,
Gözlərində yanar köz,
Gahi onun baxışı
Qəlbə şeir qoşurdu,
Gahi onun baxışı
Qaynayırdı, coşurdu…
Məni ki qandırmadı,
Nə də ki yandırmadı.

OSMAN NASİR

(1912-1944)

Osman Nasir 1912-ci ildə Nəməngəndə sənətkar ailəsində dünyaya gəldi. Kokandda məktəbdə oxudu, sonra Moskva Kinematoqrafiya İnstitutuna oxumağa getdi, lakin təhsili başa vurmadan Kokanda qayıtdı. Burada kurslarda müəllim, elm şöbəsinin müdiri, teatrda ədəbi əməkdaş vəzifələrində işlədi. 1934-cü ildə Daşkənddə çıxan «Yaş leninçi» qəzetində işə girdi. Şeirləri 1927-ci ildən sonra çap olunmağa başladı. «Günəş ilə söhbət», «Səfərbər sətirlər» adlı ilk kitabları 1932-ci ildə çapdan çıxdı. Bir neçə dram əsəri yazdı, dünya ədəbiyyatından tərcümələr etdi. 1937-ci ildə xalq düşməni elan edilərək həbsə atıldı. Əvvəlcə Maqadana, sonra Kemerovoya sürgün olundu və orada vəfat etdi.

YENİ ŞEİRİMƏ

(sonet)

Şeirim! Yenə özün yaxşısan,
Bağa girsən güllər şərməndə.
Bir mən deyil, həyat şəxsisən,
Canım kimi yaşarsan məndə.

Ürəyimin dərdi - naxışısan,
Buraxmaram səni heç handa!
Od olarmı eşqi yox danda?
Dərdimsən ki, şeirim, yaxşısan.

Sən orada körpü oldun da,
Heyne ilə qurdum yoldaşlıq,
Lermontovla qurdum sirdaşlıq.

Bütün ömrüm sənin boynunda,
Səhrada qan tüpürsəm, meyli.
Mən Məcnunam, şeirim, sən Leyli!

ZÜLFİYYƏ

(1915 - 1996)

Özbəkistanın xalq şairi Zülfiyyə (Zülfiyyə İsrailova) 1915-ci ildə Daşkənddə anadan oldu. 1932-ci ildə pedaqoji elm yurdunu bitirdi. Özbəkistan dövlət nəşriyyatında işlədi, Elm Komitəsi nəzdindəki Dil və Ədəbiyyat İnstitutunda oxudu. Uşaq ədəbiyyatı nəşriyyatında redaktor, Özbəkistan dövlət nəşriyyatında ədəbiyyat şöbəsinin müdiri, «Özbəkistan xatınqızları» jurnalının məsul katibi, «Səadət» jurnalının baş redaktoru vəzifələrində çalışdı. «Həyat vərəqləri» adlı ilk şeir kitabı 1932-ci ildə nəşr olundu. Daha sonra şairənin onlarla kitabı, seçilmiş əsərləri işıq üzü gördü. Zülfiyyə N.Nekrasov, L.Ukrainka, V.İnber kimi görkəmli şairlərin əsərlərini özbək dilinə tərcümə etdi.

1996-cı ildə Daşkənddə vəfat etdi.

SƏN HARDASAN, ÜRƏYİM

Qəlb olanda uzaqda
İradə olur aciz.
Dostlar çoxdur ətrafda,
Ancaq mən tənha-yalqız...
Birdən qəlbim sıxılıb,
Qan da qaçdı üzümdən.
Sən sirdaşı axtarıb,
Xəyal getdi izindən.
Hara getdin, ürəyim,
Bitdi dözüm və taqət.
Söhbətindir diləyim,
Dildə lay-laydır həsrət.
Çoxdur deyəcək sözüm,
Sözlərinə təşnə mən,
Durmadan ağlar gözüm,
Tənə qılar dost həmən.
Eşq odu dəydi mənə,
Yaxıb vermədi aman,
Müşküldür yetmək sənə,
Ortaya girdi hicran.
Eşqə məskən ürəyim,
Sənin ilə xəstədi.
Nə eləyim, rəhmsiz -
Ruhum səni istədi.

NƏ BƏLAYA ETDİN MÜBTƏLA

Ötdü aylar qəm ilə axıb,
Yox zərrə təsəlli, var bəla.
Fərağında qaldım alışıb,
Elədin bu eşqə mübtəla!

Göz açalı qoymadı ələm,
Başım qoysam yandırar balış.
Ovundurmaz kitab və qələm,
Misralarım yarım və yanlış.

Niyə bunca məsum, bunca pak,
Sevişməkdə ələm var, səncə?
Buna dözməz iradə, idrak,
Tamamən lal əql, düşüncə.

Dağ kimi mətin olan qəlbim,
Quş başınca qalmamış yağın.
Qəmi yenərəm deyən sərim,
Yenə artır ələmin, dağın.

Əriyib getmədim sevginlə,
Olmaram çün bəxtindən cüda,
Birlikdə olmağa sənlə
Axtarıb taparam bir ada.

ŞÖHRƏT

(1918 - 1995)

Özbəkistanın xalq yazıçısı Şöhrət (Qulam Alimov) 1918-ci ildə Daşkənddə dünyaya göz açdı. 1936-40-cı illərdə Nizami adına Pedaqoji İnstitutda oxudu. «Mehral» adlı ilk kitabı 1940-cı ildə çapdan çıxdı. Çox sayda şeir kitablarının, nəsr əsərlərinin, dram və dastanların müəllifidir. Puşkin, Şekspir, Şevçenko, Lope de Veqa kimi məşhur ədiblərin əsərlərini özbək dilinə çevirdi.

1995-ci ildə Daşkənddə vəfat etdi.

YAXŞILIQ

Öz ömründə bircə ulduz yax,
Bir ulduz ki, nurlu və parlaq.
Heç olmasa bircə çıraq yax,
Qaranlıqlar qaçsın iraq!
Öz ömründə barı bir arx aç,
Şayədə tapsın bir nihal rəvac!
Heç olmasa, ey bəxti sulu,
Güllərə ver bircə kasa su!
Öz ömründə bircə ağac ək,
Yaşayıb dursun gülən bəxtin tək.
Öz ömründə aç bircə kəlam,
«Dinclik» sözün yazsın bu aləm!..
Gər yaxşılıq gəlməz əlindən,
Yaxşı niyyət çıxsın dilindən!

DAMLAYA QULAQ AS

Damlaya qulas as, gör nə deyir o,
O axır yeni bir həvəs və duyğu,
O, novun ucundan damlayır bir-bir,
Baharın nəfəsi edibdi təsir.
Baharın müjdəsi, gəlmədə özü,
Nur ilə doludur neçə min gözü.
Sən onun səsinə qulaq as, qulaq,
Çəkilib getdi qış, ayağı çolaq!

ŞÜKRULLA

Özbəkistanın xalq şairi və Dövlət mükafatı laureatı Şükrulla (Yusifov) 1921-ci ildə Daşkənddə dünyaya gəldi. Pedaqoji elm yurdunda təhsil aldıqdan sonra bir müddət Qaraqalpaqistanda və Daşkənddə müəllimlik etdi. 1944-cü ildə Pedaqoji İnstitutu bitirdi və aspiranturada oxudu. Şairin «Birinci dəftər» adlı ilk şeir kitabı 1948-ci ildə çap olundu. Millətçilikdə günahlandırılaraq 1951-ci ildə 25 il müddətinə azadlıqdan məhrum edildi və müxtəlif həbs düşərgələrində məhbus həyatının bütün əzablarına qatlandı. Stalinin ölümündən sonra 1955-ci ildə azadlığa buraxıldı. Çoxlu şeir, pyes və esselər müəllifidir. Çox sayda kitabı, o cümlədən 3 cildlik seçilmiş əsərləri nəşr edildi. Totalitar rejimin dəhşətlərindən bəhs edən «Kəfənsiz gömülənlər» adlı əsəri xarici ölkələrdə, o cümlədən Türkiyədə nəşr olundu. Yazıçının sənət dünyası haqqında yazdığı «Cəvahirlər sandığı» əsəri çox məşhurdur.

BUGÜN YURDUMDA İSTİQLAL

Nə malım var, nə canım var,
Özüm kiməm, unutmuşdum!
Dilim laldı, qəlbim laldı,
Mən özümü uyutmuşdum.

Uzun illər yerdə qaldı
Xəzan tək yurdda istiqbal.
Necə azad nəfəs alaq,
Əgər yoxdursa istiqlal.

Qəlbim əsir, dilim əsir,
Öldüm əsir qala-qala.
Qəlbim hayqır, dilim hayqır,
Axır yetdim istiqlala!

Var səsinlə, durma, hayqır,
Dirildiyini bilsinlər!
Bugün məğribdə, məşriqdə
Teymur adın eşitsinlər!

Bugün yurdumda istiqlal!
Abad yurdumda istiqlal!

PAYIZ

Dəyişdi çəmənin yazdakı rəngi
Payız xəzəlləri tökdü bağlara,
Başqa iqlimdə var bahar ahəngi; -
Durnalar köç edir çox uzaqlara.

Başımda dolanıb yelləncək kimi,
Sanki söyləyirlər: - Bizə ol həmdəm.
Sizə ağ yol, quşlar, bahara kimi…
Mən köçə bilmərəm, gözəldir ölkəm.
Yurdunu tərk etməz insan övladı,
Elə ona görə insandır adı.

CÜMƏNİYAZ CABBAROV

Özbəkistanın xalq şairi, əməkdar incəsənət xadimi Cüməniyaz Cabbarov 1930-cu ildə Qaşqadərya vilayətinin Kasən rayonunda anadan oldu. 1952-ci ildə Daşkənd Dövlət Universitetinin filologiya fakültəsini bitirdi. «Şərq ulduzu» jurnalında şöbə müdiri, məsul katib, «Gülxan» jurnalının redaktoru, «Sovet Özbəkistanı» qəzetinin redaktor müavini, Qafur Qulam adına ədəbiyyat və sənət nəşriyyatının direktoru oldu. İlk şeri kitabı 1953-cü ildə çapdan çıxdı. Onlarla şeir kitabı, dram və nəsr əsərləri müəllifidir. Lermontov, Bayron, Firdovsi kimi ədiblərin əsərlərini özbək dilinə tərcümə etdi.

BİR GÜN...

Mavi deyə yazdım səmanı,
Tərif etdim sübhü, səbanı.
-Həyatdan üzülüb, - dedilər.

Sevgi görkü hicranü visal,
Deyə çəkdim min lövhə, misal.
-Saf duyğu pozulub, - dedilər.

Dastan etdim əməyi, şanı,
Yollar, illər verib ehsanı.
-Yamanca çözülüb, - dedilər.

Lakin bir gün xəyala daldım,
Özümü də bir şeirə saldım.
-Ürəkdən yazılıb, - dedilər.

İÇİMƏ...

İçimə gömülüb getmək istədim,
Gömülmək istədim məndən içəri.
Öz xəyal atımı çapdım dördnala,
Ancaq keçəmmədim səndən irəli.

Yeddi möcüzə var, derlər, cahanda,
Kim bilir, yeddidir, yoxsa ki yetmiş.
Bircə sən bərqərar olubsan canda,
Allah səni mənə möcüzə etmiş.

SƏN

Çox kitab oxudum, çox şeyi gördüm,
Dilbər ölkələrə etdim tamaşa.
Heyrət mənzilləri içinə girdim,
Sənə yetmək üçün dağ aşa-aşa.

Sən həm yaxındasan, həm də uzaqda,
Gəzirəm hər yanı, əlimdə çıraq.
Gahi qaranlıqda, gahi işıqda
Səni axtarıram, tapmıram ancaq.

ERKİN VAHİDOV

Özbəkistanın xalq şairi və Dövlət mükafatı laureatı, Özbəkistan Qəhrəmanı Erkin Vahidov 1936-cı ildə Fərqanə vilayətinin Altıarx rayonunda ziyalı ailəsində anadan oldu. Atası vəfat etdikdən sonra dayısının himayəsində böyüdü. Daşkənddə orta məktəbi bitirərək universitetə daxil oldu və 1960-cı ildə təhsilini başa vurdu. Sonra «Yaş qvardiya», bədii ədəbiyyat nəşriyyatlarında redaktor, şöbə müdiri, baş redaktor vəzifələrində çalışdı, «Yaşlıq» («Gənclik») jurnalının baş redaktoru, Qafur Qulam adına ədəbiyyat və sənət nəşriyyatının direktoru oldu. Hazırda senator kimi fəaliyyət göstərir. Ədəbi yaradıcılığa 50-ci illərdə başlayan Erkin Vahidiovun «Dan nəfəsi» adlı ilk şeir kitabı həmin dövrdə çapdan çıxdı. Daha sonra şairin çoxlu kitabları, dastanları nəşr olundu, pyesləri səhnələşdirildi. İ.V.Hötenin «Faust» əsərini, Sergey Yesenin və başqa şairlərin şeirlərini özbək dilinə tərcümə etdi.

ÖZBƏYİM

Qəsidə

Tarixindir min əsrlər
İçrə pünhan, özbəyim.
Sənə yaşıddır Pamir,
Ağsaç Tyanşan, özbəyim.

Qoy söyləsin Əfrasiyab,
Söyləsin Orxon yazısı,
Köhnə tarix üzüyündə
Bircə mərcan, özbəyim.

Biruninin, Xarəzminin,
Fərabinin övladından,
Əsli-nəsli bəlkə özü,
Bəlkə tərxan, özbəyim.

Ötdü bəlalı başından
Oynadıb şəmşirlərin
Neçə xaqan, neçə sultan,
Neçə min xan, özbəyim.

Dağlar çevrəsində guya

Boğma əjdər oldu ha,
İki dərya - iki çeşmin,
Çeşmi giryan, özbəyim.

Qeysəri-rum nizəsindən
Bağrında dağ üstə dağ,
Çingiz, Batu qılıncına
Köksü qalxan, özbəyim.

Yağdı dörd yandan daim
Başına tiri-kaman,
Ömrü qurban, mülkü tarac,
Yurdu viran, özbəyim.

Dövr zülmünə vəlakin
Bir ömr baş əymədin,
Sən - Müqənna, sərbədar - sən,
Ərksevər qan, özbəyim.

Sən nə zərdüşti, nə buddi,
Sənə nə atəş, sənəm,
Adəmilik dini ilə
Tazə iman, özbəyim.

Mərifətin şöləsinə
Çırpınıb zülmət ara,

Gözlərindən axdı tünlər,
Kövkəbistan, özbəyim.

Düzərək Mirzə Uluğbəy
Gürgani cədvəlini,
Sirli asiman tağına
Qoydu ilk nirvan, özbəyim.

Mir Əlişir nərəsinə
Əks-səda verdi cahan,
Şeiriyyət mülkündə oldu
Şahü sultan, özbəyim.

Elmü şeirdə şahü sultan,
Leyk təqdirinə qul,
Öz elində çəkdi qürbət,
Zarü nalan, özbəyim.

Mirzə Babur - sən, fəğanın
Saldı aləm üzrə od,
Şah Məşrəb qanı səndə
Etdi tüğyan, özbəyim.

Şeiriyyətin gülşənində
Soldu məhzun Nadirə,
Sim təni yudu göz yaşı,

Gömdü ərman, özbəyim.

Ağladi firqətdə Firqət,
Həm mükimlikdə Mükim,
Ah-nalən dən Hindü Əfqan
Qıldı əfğan, özbəyim.

Tarixini yazmağa, xalqım,
Min-min Firdövsi gərək,
Çunkü bircə çəkdiyin ah
Min-min dastan, özbəyim.

Orda qaldı köhnə tarix,
Orda qaldı dərd, sitəm,
Getdi vəhmin, bitdi zəhmin,
Tapdın dərman, özbəyim.

Oldu göylərin çırağan
Tale günəşi ilə,
Oldu əsri-təzə şamın
Şölə-əfşan, özbəyim.

Mən Vətənə bağ söyləsəm,
Sənsən onda bircə gül,
Mən Vətənə göz söyləsəm,
Bircə müjgan, özbəyim.

Fəxr edirəm, ana xalqım,
Köksümü dağ tək gərib,
Köksündə dağ götürən
Ey mərd dehqan, özbəyim.

Özbəyəm deyib cahana
Nə üçün mədh etməyim!
Özümü bilməyə dövrüm
Verdi imkan, özbəyim.

Mən böyük yurdun oğluyam,
Mən bəşər fərzəndiyəm,
Lakin əvvəl olsam sənin
Sadiq balan, özbəyim.

Mənə Puşkin bir cahandır,
Mənə Bayron bir cahan,
Leyk Nəvai tək babam var,
Köksüm asiman, özbəyim.

Hara getsəm, başda düppəm,
Şöhrətim, qədrim böyük,
Aləm üzrə adı məşhur
Özbəkistan, özbəyim.

Bu qəsidəm sənə, xalqım,
Ağ südü, duz hörməti,
Erkin oğlundan, qəbul et,
Özbəyim, can özbəyim.

1968

ANA DİLİM ÖLMƏYƏCƏK

Natiq dedi:
«Təqdir bu,
Bu, cahani iradə.
Dillər yox olub gedər,
Bir dil qalar dünyada».

-Ey vaiz, düş aşağı,
Bu söz də çıxdı hardan!
Nəvai ilə Puşkin
Durub gəldi məzardan.

Kim qəzəbli,
Kim heyran,
Çıxıb gəldilər qatar:
Dante,
Şiller

və Bayron,
Firdovsi,
Balzak,
Taqor.

-Vəzi burax, bəradər,
Sən dediyin olarmı?
Hamı dedi bərabər:
-Ana dilim ölərmi!.

-Ey, bu necə əqidə! -
Əlində təbərrük cam,
Farsi dili haqqında
Rübai dedi Xəyyam.

Ehtirasli, atəşdil
Beranje sordu nalan:
-Niyə fransız dili
Yox olmalı bir zaman!

Neruda, Lorka durdu
Servantesin yanına:
-Kim qəsd edir, söyləyin,
İspancanın canına?

Füzuli yandı: - Azər

Dili gül tək solarmı?
Hamı dedi bərabər:
-Ana dilim ölərmi?

Göy qurşağı rəngbərəng,
Eynən sənət və dillər,
Əsrlərcə qıldıq cəng,
Biz vuruşduq min illər.

Artıq çatıb zirvəyə
Dillərdəki təravət!
Heyhat, yox oldu bugün
Qəbrlərdə sükunət!

«Faust» yandı kül oldu,
«Xəmsə» oda alışdı,
Bir səda bülənd oldu,
Ucaldı, dağlar aşdı.

O duyulur hər zaman,
Əsla əda olmadı.
Aləm deyər:
Heç haçan
Ana dilim ölmədi!
1976

BAŞ TƏRPƏDƏR SAAT KƏFKİRİ...

Baş tərpədər saat kəfkiri,
Der: qədrimi bilməz adamlar.
Saniyələrim gövhər hər biri,
Niyə pərva qılmaz adamlar?!

Baş tərpədər saat kəfkiri,
Çaşqın adam, ötməkdədir an.
Hər nəsnənin olar axırı,
Baş tərpədib qalma sən, insan!

1964

MİRƏZİZ ƏZƏM

Mirəziz Əzəm (Mirəziz Əzəmov) 1936-cı ildə Daşkənddə dünyaya gəldi. Daşkənd Dövlət Universitetinin filologiya fakültəsini bitirdi. Özbəkistan televiziyasında, «Qönçə» jurnalında, «Yaş qvardiya», Qafur Qulam adına ədəbiyyat və sənət nəşriyyatında işlədi. Bədii yaradıcılığa tələbəlik illərində başladı. «Metallurq» adlı ilk şeir məcmuəsi 1964-cü ildə çap olundu. Onlarla şeir kitabı nəşr edildi. Nazim Hikmət, Pablo Neruda, Yevgeni Yevtuşenko kimi şairlərin şeirlərini, Orxan Kamalın bir romanını və digər əsərlərini özbək dilinə tərcümə etdi.

HƏQİQƏT DƏYNƏYİ

Sözünü anladım,
mənzərə aydın,
Təsəvvür edirəm sənin halını.
Sən o kölgəciyi bir təhdid saydın,
Pozmaq istəyir o, xoş əhvalını.
Heyvərə gövdəsi,
gümanlı gözü,
səskənər, duyanda adam səsini.
Heç qorxma, danışım,
dinlə sən özün
Bir başqa qorxunun hekayəsini.

Mən də, dostum, kiçikliyimdə
bir uşaqdan qorxardım yaman.
Bir sinifdə oxusaq da biz
verməz idi o mənə aman.
Məndən böyük üç yaş,
iki gözü çaş,
gövdəsi ikiqat gələrdi mənə.
Harada tuş gəlsək, hədələyərdi:
«Göstərəcəyəm gününü sənə!»

Bir gün xəlvət yerdə qəflətən, naçar,
Yolumu kəsərək söylədi:
-Dayan!
Niyə filankəsə çıxırdın qahmar?
-Haqlının yanında dururam hər an.
-Sənə haqlılığı göstərəm gərək!
Kaş qahmar çıxaydın ürəyində sən,
De, sənə kim arxa duracaq görək?
İndi kim alacaq səni əlimdən!

Əzdi qabırğamı ləzzət alaraq,
Məni əzişdirdi əməlli-başlı,
O qədər döydü ki,
O qədər güldü ki,
Qaldım dərd içində, gözləri yaşlı.

«Dur hələ, sən heyvan!» dedim içimdə,
Səssizcə mən evə tərəf gedərək.
«Dur hələ, sən heyvan!» dedim içimdə,
Kəsdim şax budaqdan yaxşı bir dəynək.

Qoyun otardığı səmtə yönəldim,
O cumdu üstümə məni görüncə.
Bu zorba gədənin önünə gəldim,
Əlimdə dəynəklə əmin, xatircəm.

Bir tənha yer idi, ətraf qaranlıq.
-Sənə nə lazımdı? - soruşdu məndən.
Duyub niyyətimi qorxdu bir anlıq,
Gözü çıxacaqdı hədəqəsindən!

Üstümə cummağa tapmadı fürsət,
Mənə də intiqam sırası gəldi.
Nə üzü, nə gözü qaldı, nəhayət,
Endirdim dəynəyi harası gəldi.

Üzünü tutaraq qovladı məni,
ayağına vurdum,
əlinə vurdum,
bir yaxşı zərbə də düz təpəsinə.
Axırda vüqarla önündə durdum.

Dad çəkib, ordaca yıxılıb qaldı.
Ertəsi günü
məktəbdə yenə də cummaq istədi,
necə qaraltdımsa onun gözünü,
elə bil ayıldı, geri həstədi.

O gündən gücümə inamım artıb,
təzyiqdən,
zorluqdan
rahatdır içim.

Əsassız təqibdən qaçmıram artıq,
Həqiqət dəynəyi mənim köməkçim.
Dostum!
Bil, belədir dünyanın işi:
Güləş zorluqlarla düzü-düzünə.
Kim təzyiq eləsə,
pozsa güləşi,
həqiqət dəynəyin əlinə alıb
zolla sifətinə, zolla üzünə.

Zolla sifətinə, zolla üzünə,
Acıma, yıx yerə sən onu nər tək,
qoy çaxsın gözündə ildırım, şimşək.
Zolla sifətinə, zolla üzünə,
Fəqət güclü olsun vurduğun zərbə.
Bir zərbə kifayət etməsə, saqın,
Dayanma, bir də vur,
Üç, beş dəfə vur,
bir daha o sənə gəlməsin yaxın.
Həqiqət sözünü duyunca qaçsın,
Yadında saxlasın səni bir ömr,
zolla sifətinə, zolla üzünə...

CAMAL KAMAL

Özbəkistanın xalq şairi Camal Kamal 1938-ci ildə Buxara vilayətinin Şafirqan rayonunda anadan oldu. Buxara Pedaqoji İnstitutunun filologiya fakultəsini bitirdi və həmin institutda dərs dedi, «Buxara həqiqəti» qəzetində işlədi, Yazıçılar İttifaqının Buxara bölməsinin məsul katibi oldu. Özbəkistan Elmlər Akademiyasının Dil və Ədəbiyyat İnstitutunda işlədi, Yazıçılar İttifaqının sədri oldu. İlk şeir kitabı 1968-ci ildə nəşr edildi. Daha sonra onlarla kitabı çapdan çıxdı. Cəlaləddin Ruminin «Məsnəviyi-mənəvi»sini, Fəriddəddin Əttarnın «İlahinamə», «Əsrarnamə» və digər əsərlərini özbək dilinə tərcümə etdi.

KÖNÜL GÜZGÜSÜNƏ BAXSAM...

Könül güzgüsünə baxsam, neçə rəmzü işarətlər,
Açılacaq məsafətlər, görünəcək imarətlər.

Könül güzgüsünə baxsam, fələklər bölgüsü peyda,
Fələklər qoynunda görrəm əcəb hüsnü lətafətlər.

Səmavatlara hədd yoxdur, məqamatlara həm payən,
Hara baxsam, təmamət yox, dəvamətlər, dəvamətlər.

Ayə könlüm, bu aləm içrə çin aləm araşdırsan
Ki, sənə iki aləmdən gəlir sirrü sənaətlər.

Dirilik nə imişdir, hey, bu zülmət, bu ziya içrə?
Rəyazətlərdə taətlər, məşəqqətlərdə taqətlər.

Qoyub yeri, gahi övcü - fələyə yetişir ahim,
Düşüb canıma atəşlər, yetib ruhuma halətlər...

Nedərsən bu cahanı, ey könül, bu yerü asimanı,
Gedər olsa ədalətlər, qalar olsa nədamətlər?

Könülə, yar visali olmasa, yoxdur həlavət həm,
Xudaya, ver Cəmalə gənci vəslindən həlavətlər...

BUXARADAN, BUXARADAN

Bu hədsiz dövləti-məmur Buxaradan, Buxaradan,
Bu sonsuz sənəti-mənzur Buxaradan, Buxaradan.

Nə xoşdur danüzü məsrur, misali-şöleyi-billur,
Ucalsa nəğmeyi-tənbur Buxaradan, Buxaradan.

Nə xoşdur, dan ilə tənqur boşaltsa hər güni min qur
Ovucdan zər, ətəkdən dürr Buxaradan, Buxaradan.

Təbiət intixab edən, səxavət bihesab edən,
Bu nə möciz əlamətdür Buxaradan, Buxaradan.

Nəgahi sizi lal etsə, suzi-aşüftəhal etsə,
Bilin, bu arizi-süxsur Buxaradan, Buxaradan.

Elm-dəryalığın dibaçəsin min il bəyan eyləyib,
Mühəmməd Nərşahi aytur: Buxaradan, Buxaradan.

Buxari tələti-bais, əzizlər himməti-bais,
Səmalərə ucalar nur Buxaradan,Buxaradan.

Təbabət elmində Sina, nəfasət babında tənha,
Dəmadəm oldular məşhur Buxaradan, Buxaradan.

Cahana rubəru gəlsə, Camalə şərh hacət yox,
Bu bəsdir söyləsə məğrur Buxaradan, Buxaradan.

ABDULLA ARİFOV

Özbəkistanın xalq şairi və Dövlət mükafatı laureatı, Özbəkistan Qəhrəmanı Abdulla Arifov 1941-ci ildə Qaşqadərya vilayətinin Kasan rayonunun Nəküz kəndində anadan oldu. 1963-cü ildə Daşkənd Dövlət Universitetinin filologiya fakültəsini bitirdi. «Yaş qvardiya», Qafur Qulam adına ədəbiyyat və sənət nəşriyyatlarının redaktoru oldu, «Şərq ulduzu» jurnalının şöbə müdiri, «Gülxan» jurnalının baş redaktoru, müəlliflik hüquqları agentliyinin direktoru, Özbəkistan Yazıçılar İttifaqının sədri vəzifəsində çalışdı. Hazırda senator kimi fəaliyyət göstərir. Abdulla Arifovun «Kiçik ulduz» adlı ilk şeri kitabı 1965-ci ildə nəşr edildi. Daha sonra onlarla kitabı, o cümlədən seçilmiş əsərlərinin dörd cildliyi çapdan buraxıldı. Dantenin «İlahi komediya»sını, Puşkin, Nekrasov, L.Ukrainka kimi şairlərin əsərlərini özbək dilinə tərcümə etdi.

AZƏRBAYCAN

Xəyal atı ilə gəzsən hər yanı,
Tapmazsan bunun tək qutlu zamanı.

Möhr etdi dillərə zəmanə, çün kim,
Dostluq adlandırmış ali ehsanı.

Əzizləyib durdu, nə vardı başqa,
Bu gün azər eli Özbəkistanı.

Söyləsin min illik qocaman tarix,
Bu dostluq bildimi şübhə, gümanı?

Özbəyəm, anlamaq həddinə vardım,
Azəri dilini, incə zəbanı.

Əsil Muqənnaya qiyas etməli
Babəkin qəlbindən daşan tüğyanı.

Nizami balından həlva bişirmiş,
Nəvai zəbt edib türki cahanı.

Bir ləhzə əlindən qoymuşmu özbək,
Özün de, Füzuli yazan divanı.

Gəzdirdim, dilimdə əsrlərlə mən
Nəsimi qaldıran sabit imanı.

Vurğun şeirini der can üstə özbək,
Azər əsirgərmi Qafurdan canı.

Sənlə inqilab cənggahlarında
Birgə tanımışıq yaxşı-yamanı.

Tarix ki möhtəşəm yadigar-ali,
Söyləsin bu günü, eyni bu anı.

Qardaşlıq bayrağı altında güşad,
Təvab etmədəyik gülgün məkanı.

Xəzər kasə olsun, yəni cami-Cəm,
İçgilən şərəflə dövrü, dövranı.

Sən tək ev yiyəsi tapmağım güman,
Sən də tapammazsan mən tək mehmanı.

Mövcud olmasaydı aləmdə əgər,
Düşünər, tapardım Azərbaycanı.

ÜMİD KÖRPÜLƏRİ

Üzdən pərdə getsə,
Qəlbdən dəyanət,
Mehr rişələri kökdən üzülsə;
Dolsa ürəklərə şübhə, xəyanət,
Ümid körpüləri pozulsa,

Görsən yetim haqqı yeyən alçağı,
Çəkilmək yerinə sökülsə yollar,
Qibləgahlar asi, doğmalar yağı,
Əgər xəzinəyə daraşsa qullar,

Balalar ruhuna həyat dərsi yox,
Xudbinlik toxumu əkilsə əgər,
Aşiqlər xəlvətə sevdiyindən çox
Başqa birisiylə çəkilsə əgər,

Elin şairləri düşmənlər kimi
Bir-birlərini didib-yesələr;
Çıxsa minbərlərə küçə iqlimi,
Artıq utanmağa qorxu desələr...

Yox belə ölkədə qırğına gərək,
Yox belə ölkədə gərək vəbaya,

Hətta dənizləri quruyar tək-tək,
Hətta torpaqları düşər bəlaya.

Xalqım, sən bunları görübsən əvvəl,
Onlar çox əzablar veriblər sənə,
Sən şəri yenibsən, yenə qalib gəl,
Xalqım, tapınıram özünə yenə.

MİN İLLƏRDİR...

Min illərdir bülbül kəlamı
Dəyişmədi, matam bu işə.
Zavallı tutuquşunun halı –
Özgələri təqlid həmişə.

Ana dilim, sən varsan, şəksiz,
Bülbül cəh-cəhini şeirə salaram.
Sən yox olsan əgər, şübhəsiz,
Mən tutuquşu olub qalaram...

MƏHƏMMƏD ƏLİ

Özbəkistanın xalq yazıçısı Məhəmməd Əli (Məhəmmədəli Əhmədov) 1942-ci ildə Əndican vilayətinin Büz rayonunda anadan oldu. 1966-cı ildə Moskvadakı M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirdi. «Şərq ulduzu» jurnalında işlədi, Qafur Qulam adına ədəbiyyat və sənət nəşriyyatının baş redaktoru, beynəlxalq «Altın miras» fondunun sədri oldu. Hazırda Əmir Teymur adına fondun sədridir. «Fəzadakı hisslər» adlı ilk kitabı 1967-ci ildə nəşr edildi. Çoxlu şeir kitablarının, tarixi romanların müəllifidir. Hindlərin «Ramayana», qaraqalpaqların «Şəhriyar» və «Məspaşşa» eposlarını, habelə R.Börns, Bayron və başqa ədiblərin əsərlərini özbək dilinə tərcümə etdi.

KÖNÜL

Könül aşna olmaq istəyində məst,
Məqam tutmaq dilər aşiyanını.
Ağlıma ilk gələn yerləri deyil,
Yalnız sənin parlaq asimanını.

Ah, dildə doğular qəraib şeir,
Günəş də qız kimi dayanıb baxar.
Lap ərşi-əladan üzü bəri yer
İlhamlar selində boğulub axar...

Sevirəm! Sevirəm! Qurbanın olum,
Kəs, yetər, parçala sən riştələri!
Palçıqdan yaranan olsam da niyə,
Niyə könlüm dilər fəriştələri!..

SUALA DÖNƏN ADAM

Əvvəllər yox idi, mütləq yox idi...
Sonra röya içrə röya oldu o.
Dünya eyvanında, həyat üfqündə
Bir gün nöqtə kimi peyda oldu o.

Bu nöqtə böyüdü, böyüdü bir gün,
Küçələr dar gəldi onun şəstinə.
«İndi hayqırıram!» dedi vüqarla,
Baş qoydu səmanı tutmaq qəsdində!

Uzun ömür sürdü... Nə olsun axı,
Çox nöqtələr kimi axdı səmərsiz.
Amma hamı ilə dil tapdı daim,
Özünü mənasız saydı onlarsız.

İndi misal olub o gündən bəri,
Bu sual zamana baxıb durur lal,
Niyə?
Nəyə görə?
Nədən?
Nə üçün?
O – dünya üzünə atılan sual!

GÖZLƏRİNİZ...

-Gözləriniz qıyıq, asiyalısız,
Necə görürsünüz bu gen aləmi?
Şübhə yox, bilikli və ziyalısız,
Qəsdən dalda gəlirsiniz, eləmi?

-Heyhat, asiyalı yamanca qızıb,
Bugün arzuları fontan vurubdu.
Sabah harda deyə gözünü qısıb,
Uzaq üfüqlərə baxıb durubdu!..

AYDIN HACIYEVA

Özbəkistanın xalq şairi Aydın Hacıyeva 1942-ci ildə Buxara (indiki Nəvai) vilayətinin Qızıltəpə rayonunda anadan oldu. 1965-ci ildə Daşkənd Dövlət Universitetinin filologiya fakültəsini bitirdi. «Şərq ulduzu» jurnalında ədəbi işçi, şöbə müdiri, «Səadət» jurnalında şöbə müdiri işlədi. Hazırda «Səadət» jurnalının baş redaktorudur. «Şəbnəm» adlı ilk şeir kitabı 1971-ci ildə çap olundu. Ondan artıq kitab müəllifidir. Ş.Petefi, R. Kazakova və başqa şairlərin əsərlərini özbək dilinə tərcümə etdi.

BAĞLARDA...

Bağlarda yasəmən, yaz çiçəkləri,
Qumrular məstanə ötər hər yanda.
Günəş isitmədə buz ürəkləri,
Xoş duyğu yaradar bahar insanda.

Çiyələk kol üstdə qızıl mərcandır,
Ağ tut ağızlarda nabat-dərmandır,
Buğda başaqlanıb süd tutan andır,
Yazın xəyalları gül açar canda.

Səs-küylü sığırçın xəyalpərəstdir,
Göyərçin rəqsləri eşqə peyvəstdir,
Qırxqardaş gülləri bir falpərəstdir...
Sular guruldayar cüt dəyirmanda...
Cənnət Özbəkistanda...

NOVRUZ

Ərik budağında yandı min çıraq,
Əlvan kəpənəklər qondu badama.
Laləyə bənzəyən, gözləri qara
Qızlar günəş kimi çıxdılar dama.

Cilovsuz dayça tək şütüyər, kişnər,
Qış boyu əsnəyən ərincək çaylar.
Bahar busatından çiçəkləndilər,
Gəlin otağı tək köhnə saraylar.

Xonçalı hər gəlin sanki bir mələk,
Bu dünya sevgiyə, sirrə bürünər.
Yağmur qopuzunu çalanda şimşək,
Səmənlər qızıla, dürrə bürünər.

Darayar qumrular damda tükünü,
Kim deyir bahardan kamını almaz.
Bitkilər dərinə salar kökünü,
Ballanar, çiçəkdən geriyə qalmaz.

Qərib qəbristanda qovaqlar qəmli,
Nakam arzuların gülünü açar.
Hər qəbrin üstündə dərdli, ələmli
Xatirə dastanı oxuyar bahar.

Həyat əbədidir. Həyat – qənimət,
Davullar vurular, başlayar Novruz.
Necə sehrkarsan, ana təbiət,
Hər bir hüceyrəndə yanar bir ulduz.

Min simli saz kimi səslənər insan
Novruz yellərinin ahəngində məst.
Sübhədək bahardan zövq alar cahan,
Bir quçaq güldəstə, qəlbində həvəs.

AMAN MƏTCAN

Özbəkistanın xalq şairi, Dövlət mükafatı səvrindarı (laureatı) Aman Mətcan 1943-cü ildə Xarəzm vilayətində dünyaya göz açdı. 1969-cu ildə Səmərqənd Dövlət Universitetini bitirdi. Qafur Qulam adına ədəbiyyat və sənət nəşriyyatında redaktor və şöbə müdiri, «Yaşlıq» jurnalının baş redaktoru vəzifələrində işlədi. Prezident aparatında məsul işçi, «Çolpan» nəşriyyatının direktoru, «Gülxan» jurnalının baş redaktoru vəzifələrində çalışdı. Şeirləri 1965-ci ildən çap olunur. «Açıq pəncərələr» adlı ilk kitabı 1970-ci ildə nəşr edildi. Çoxlu şeir kitablarının, dastanların, «Turabəyxanım» romanının müəllifidir.

DEVRİLƏN AĞAC

Gecə şimşək düşdü bağın yanına,
Zülmət yoxa çıxdı bir müddət, bir vəxt.
Vulkan tək partladı qaranlıqlarda
Devrilən dərəxt!

Cüssəli yaşıl bir səltənət idi,
Azad quşlar üçün gözəl payitəxt.
Qığılcım bir anda qovdu quşları,
Devrilən dərəxt!

Niyə, niyə yandı?! O gecə qəfil
Buludlar gurlayıb elədilər cəhd -
Oyaqdı, özü ilk zərbəni aldı,
Devrilən dərəxt!

Çıtır-çıtır yandı gecə boyunca,
Özü ürək idi, hər yarpaq bir dərd.
Agah etdi öz bağını qorxudan
Devrilən dərəxt!

Ağaclar yanmaqda bugün dünyada,
Yanıb, özgələri qurtarmaq nə bəxt!
Dostlarımdır bütün yana yatanlar,
Mənim ürəyimdir devrilən dərəxt!

OYANIŞ

Günəşdən bir nurlu gücdür ucalan,
Qışın buz donunu cıraraq atan,
Qəflət yuxusundan yeri oyadan,
Bu bahar deyilmi, sualım budur?!

Ocaq qalamağa dan üzü qaçıb,
Qapını quşqanad yel kimi açıb,
Balanı oyadan mehrlər saçıb,
Bu ana deyilmi, sualım budur?!

Addımbaşı olub yalan, xəyanət,
Bir küncə qısılan ləhzə dəyanət,
Vicdanı oyadan, salan qiyamət,
Bu iman deyilmi, sualım budur?!

Səni yaxın, eli uzaq eləyən,
Vəfanı ürəyə bayraq eləyən,
Gecəni ulduzla oyaq eləyən,
Bu sevgi deyilmi, sualım budur?!

Həyat yemək-içmək üçünsə əgər,
Hər kəs öz kefinə düşkünsə əgər,
Şairləri qorxub çəkinsə əgər,
Xalqı kim oyadar, sualım budur?!

TARLA KƏNARINDA YATAN KÖRPƏYƏ

Deyirlər insanın başı içində
Var imiş daima ayıq bir damar,
O üzdən adamı dürlü sözlərdən
Hətta yuxusunda edir xəbərdar.

Zəhmətkeş xalq ilə görüşən zaman
Nəməngən elində bahar çağında,
Gördüm ki, bir qadın şeir dinləyir,
Köprəyə süd verir yol qırağında.

Məni dinləyirdi qoca dehqanlar,
Xüsusən gənclərə aiddi sözüm,
Lakin lap yanımda dinc yuxu yatan
Bu körpə uşağa ilişdi gözüm.

Oğlandı bir yaşda, başında düppə,
Əynində göy rəngdə paltarı vardı.
Ağ mərmər üstünə qoyulan köprə
Ananın köksündə bir şah damardı.

Şeirimdə dedim ki, tariximizdə
Xoş günü, xoş anı çox özləmişik.
Bizə ziyan vurub çəkişmə, savaş,
Həqiqi rəhbəri çox gözləmişik.

Mən dedim, üsyankar sözə, şairə
Çox acı, çox qəddar hökm yazıblar.
Özbəyin ən əziz övladlarını
Ya kor eləyiblər, ya da asıblar.

Söz açdım aslanvar Qafur Qulamın
Zamana səs salan təntənəsindən.
Buludlar altına şölə saçaraq
Söz ilə günəşi mədh etməsindən!

Dedim bir nağılda o ulu tanrı
Çəkmiş ölkəmizi cənnətə misal.
Behişt meyvələri, abi-həyat, su,
Səmavi məqamlar, nə istəsən var.

Dedim yer kürrəsi yumru-yuvarlaq,
Zaman da hər yerdə eynidir, birdir.
Ya səma yaxındır, ya yeri uca -
Xarəzm göyündə ulduz iridir.

Dedim Buxarada körpə quzunun
Dərisi od tutub yansa şölədar,
Deməli, onlarda yer üzündəki
Hesabsız qanların şəkli, əksi var!

Səmərqənddən dedim, dedim Daşkənddən,
Dedim Abdullanın şəhri-səbzəsin.
Uşaq dinc yatırdı.
Tarlanın yeli
Neçə yol batırdı şairin səsin.

Deyirlər insanın başı içində
Var imiş daima ayıq bir damar,
O üzdən adamı dürlü sözlərdən
Hətta yuxusunda edir xəbərdar.

Mən şeir deyirəm,
Hamı dinləyir.
Uşaq yatır. Tarla - yelləncəyidir.
Mən rica edirəm, o da eşitsin,
Oyansın,
O, xalqın
gələcəyidir!

1979

RAUF PƏRFİ

(1943 - 2005)

Özbəkistanın xalq şairi Rauf Pərfi (Rauf Pərfi oğlu Pərfi) 1943-cü ildə Daşkənd yaxınlığındakı Şuralısay kəndində anadan oldu. 1960-65-ci illərdə Daşkənd Dövlət Universitetinin filologiya fakültəsində təhsil aldı. Yeniyol rayon qəzetində müxbir, Özbəkistan Dövlət Kinomatoqrafiya Komitəsində, Qafur Qulam adına ədəbiyyat və sənət nəşriyyatında redaktor, Yazıçılar İttifaqında ədəbi məsləhətçi, «Cahan ədəbiyyatı» jurnalında şöbə müdiri işlədi. Şeirləri 1957-ci ildən çıxmağa başladı. Onlarla şeir kitabının müəllifidir. Bayronun «Manfred», Nazım Hikmətin «Məmləkətimdən insan mənzərələri», Mahmud Hadi, Karlo Kaladze kimi ədiblərin əsərlərini özbəkcəyə çevirdi.

2005-ci ildə vəfat etdi.

DAN SÖKÜLƏR

Dan sökülər. Dan oxlar atar,
Dan sökülər, günəş - zəmbərək.
Yaralanan yer şarı yatar,
Başında yamyaşıl çəmbərək.

Dan sökülər, səfalı dana
Ürəyini tutar adamlar,
Bu dan üçün gələn cahana,
Və bu dan deyib ötən adamlar.
Dan sökülər...

ANA TÜRKÜSTAN

Abdulla Qadirinin xatirəsinə

1
Xatirəmin dərin dibində tarix
Daim dilə gələr həzin hekayə.
Əsir quş misalı olaram qərib,
Ruhuma buludlar salarlar sayə.

Tez-tez xəyalımdan çəkilər mübhəm,
Sıyrılar fikrimdən Vətən qarası.
Uzaqda titrəyib öləziyən şəm
Köhnə həsrətimin məşum yarası.

Birdən zəncirlənər qollarım guya,
Torpağa qovuşmaq istəyər tənim.
Bu qədər ürəyi dardımı – dünya,

Niyə övladına - özünə qənim?
Özü ürəyimdə yer tutar, amma
Mənə heç yer verməz neyçün Vətənim?!

2
Gör öz tarixini, sən ey türk xalqım,
Gözümdə sabahın sevinci xilas.
O, Turandır, Türküstandır? O bəlkə
İçimi kəmirən qədimi qisas.

Gör öz tarixini, gözdən at pərdə,
Əlimdən uçmada bu yer, bu Vətən...
Necə dost olardım polad xəncərlə...
Savaş meydanına atılardım mən.

Vətən, mən dönərəm bir kəskin daşa,
Qaşına bir ox tək uçaram, inan...

Niyə dil başqadır, niyə qəlb başqa?!

Yox! Fərman istərəm, sonuncu fərman,
Şəklənib baxaram qalxan günəşə.
Qisas-qisas deyə yanaram hər an.

3
Ömür dedikləri ötməkdə şaşqın,
Qızıl yarpaqları döşə yoluma.
Sən ki əbədisən, mən oldum təskin,
Gələcək yazılsın mənim ömrümə.

Ey ana Türküstan, vəsf etdim yanıb,
Dünya cürətini verdin əlimə.
Mən indi anladım türk dünyasını,
Mən indi hazıram, indi ölümə.

Ey mənim zəhmətkeş, ey qutlu xalqım,
Ver yalnız vəsf edib-eləmək haqqı.
Məni məsul edir tapılan bu Bəxt.

«Eşq üçün vəsf etdi bülbül məskəni!» (1)
Dillə vəsf olunmaz ana Vətənim,
Mən səni vəsf etmək istərəm fəqət.

1) Əlişir Nəvainin qəzəlindən

ÇOLPAN

Bu aciz xalıma şairəmmi mən?
Çolpan

1

Ana dilim, sən ruhumun qanadı,
Təmiz türk nəfəsi, Altay çiçəyi.
Hun dövründən çapıb gəldi Qıratın,
Qutlu Ənəsayın nağıl-gerçəyı.

Orxon boylarında çevrildin daşa,
Göylərə sancıldın, Turan oldun sən.
Əbədi səfərə və son savaşa
Haçan hazırlaşdın, gücə doldun sən?

Parlaq asimanda quzğunlar uçdu,
Ey vah, yağıların saldı yağmanı,
Yağılar sənin al qanını içdi,

Ciyər-qan qoxusu tutdu cahanı.
Anasan. Keçirdin. Qanından keçdin,
Ancaq keçirmədin əsla yalanı.

2

Dünya ağ deyil ki, səbr adlı daş,
Yanıb, yadımızdan keçənlər desin.
Sözlərində zəhər, gözlərində yaş,
Elindən, dilindən keçənlər desin.

Gecə basıb gələr dünya həsrəti,
Gündüz gizli tüğyan, basıb gələr şeir.
Niyə yarımçıqdır şair qisməti?!
Düşlərimi pozar həzrət Əlişir.

İllər baharımı uçurdu, çalıb,
Buzlara köçürdü yaşıl yazımı.
Axtardım, mühitdən çöp kimi qalxıb -

Mən öz günəşimi, öz ulduzumu...
Ulduz sən, günəş sən, sən, ana xalqım,
Sən üçün sındırdım sınmaz sözümü.

3

Şairin qisməti parlaq və gülgün,
Zövqlərə dolar o, bir sözü izlər.
Dünyada heç kimsə bilməz, nə üçün
Ayrıca gülər o, ayrıca bozlar.

Yolsuzluq – yoldaşı, taleyi düyün,
Görəsən, bilirmi bunu yavuzlar.
Bu «xalq düşməni»ni tutsalar bir gün,
Axı, o, xalqının adından sözlər.

Başında qara qış, bəyaz baharlar,
Ürəyi yarımdır, bütöv imanı,
Tələtüm anını səssiz çağırar.

Bədəni – əmanət, nəqdidir canı,
Köks qəfəsində od kimi parlar
Böyük məhəbbətin qanlı nişanı.

HƏLİMƏ XUDAYBERDİYEVA

Özbəkistanın xalq şairi, Dövlət mükafatı laureatı Həlimə Xudayberdiyeva 1948-ci ildə Sirdərya vilayətinin Bayyavut rayonunda dünyaya göz açdı. 1972 -ci ildə Daşkənd Dövlət Universitetini bitirərək «Səadət» jurnalında işlədi. 1975-77-ci illərdə Moskvada ali ədəbiyyat kurslarında oxudu. Sonra «Yaş qvardiya» nəşriyyatının şöbə müdiri, «Səadət» jurnalının baş redaktoru, Özbəkistan xatınqızlar fondunun sədri oldu. «İlk məhəbbət» adlı kitabı 1968-ci ildə nəşr edildi. Ondan artıq şeir kitabının müəllifdir.

İNŞAALLAH...

İnşaallah, olsa ömür vəfası,
Mən xalqımın möhkəm dağı olaram.
Nadirənin təkrar gələn sədası,
Türk-Turanın zınqırovu olaram.

Zınqırovlar dindi, dili kəsilib,
Uca dağlar sindi, beli kəsilib,
Türk ağacı sındı, eli kəsilib,
Onun yeni qol-budağı olaram.

Bir səs gələr tarixlərin altından:
Qəsrlərim tikiləcək altından.
Mən Türk torpağının ən alt qatından
Yer üzünün günəş yağı olaram.

Könlüm olar hər dövrandan aşan can,
Şeirim olar ölüm bilməz, yaşayan.
Yəsəvini bu zamana daşıyan,
Xidmətçisi, həm dayağı olaram.

Türk-Turanın zınqırovu olaram.

AĞI

Vüqarlı, görkəmli, xoşbiçim, ağ dost,
Gülərüz, kefi kök, damağı çağ dost,
Halalı, haramı seçməyən dağ dost,
Ağım hər gün solan balalar üçün.

Alma saplağı tək incəcik boyun,
Yarı ac, yarı tox, görməmiş düyün.
Olmasaydı... böyük olardı soyun,
Ağım ölüb gedən balalar üçün.

İçib, uçub yatan babalar haqda,
Dözüb, köçüb yatan babalar haqda,
Bir-birini satan babalar haqda,
Hələ borc ödəyən balalar üçün.

Yarəb, diş batırmaq olmazmı bəsi?
Adamlar deyil ki, çaqqal sürüsü,
Birinin zülmündən görüb birisi,
Yıxıb sürükləyən balalar üçün.

Çətin çata iman, həcc dadlarına,
İblis möhür vurmuş kəc yadlarına,
Bir-birin qıranda, əcdadlarına
Oxşayıb bənzəyən balalar üçün.

MƏTNƏZƏR ƏBDÜLHƏKİM

Özbəkistanın əməkdar mədəniyyət xadimi Mətnəzər Əbdülhəkim 1948-ci ildə Xarəzm vilayətinin Urgənc rayonunda dünyaya gəldi. Rusiyanın Taqanroq şəhərində Rus Dili və Ədəbiyyatı İnstitutunu bitirdi. «Şəffaf dan» adlı ilk kitabı 1982-ci ildə nəşr olundu. Ona yaxın kitabı çıxdı. Şeyx Nəcməddin Kübra, Şeyx Məcdəddin Bağdadi, Pəhləvan Mahmud, Mirzə Bidilin əsərlərini fars dilindən özbəkcəyə tərcümə etdi.

BƏXT

Bu mükəmməl gözəlliyini
Mən etmək istədim tərif,
Ancaq nə edəcək qaşında
Ən qüdrətli qələmlər qərib.

Vüsalına etsəm də həvəs,
Mehrim izhar etmədim heç vaxt.
Sənilə bir havadan nəfəs -
Almaq özü mənə böyük baxt.

Bir çevrilib baxsan əgər
Ürək dolar sönməz ziyaya...
Səni bircə dəfə görmək üçün
Dəyər gəlib-getmək dünyaya.

İMKANİYYƏT

Qəmginlik kəm olmaz qulluqdan,
«Əsirəm» de, ağla – mədəniyyətdir?
Hər ləhzə, hər nəfəs bu əsirlikdən
Xilas olmaq üçün imkaniyyətdir.

MƏHƏMMƏD RƏHMAN

Özbəkistanın əməkdar mədəniyyət xadimi Məhəmməd Rəhman (Məmədi Rəhmanov) 1949-cu ildə Qaşqadərya vilayətinin Kitab rayonunda anadan oldu. 1972-ci ildə Daşkənd Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdi. Surxandərya vilayət qəzetində müxbir, Özbəkistan Televiziya və Radio Verilişləri Komitəsində, «Yaş qvardiya» nəşriyyatında redaktor işlədi. Hazırda prezident aparatında çalışır. «Müvazinət» adlı ilk kitabı 1976-cı ildə nəşr edildi. Bir neçə kitab müəllifidir. K.Çukovski, A.Barto və digər ədiblərin əsərlərini özbək dilinə tərcümə etdi.

TƏQVİM VƏRƏQLƏYƏN ADAM

Təqvim vərəqləyən adam,
Səssiz olmaq gərək,
Ömr ötüb keçdi, ömr!
Təqvim vərəqləyən adam,
Xəyala dalmaq gərək:
Razı sala bildimmi ata-anamı?
Uşaqların tərbiyəsi necə?
Səs gəlincə qapıya boylanan,
Dörd gözlə yolumu gözləyən,
Xəstə yatan qardaşımı?
Uymadım ki, şeytan vəsvəsəsinə,
İmanım salamatmı?
Son mənzilimə qoyub qayıtsalar,
Yolda biri astadan yanıb,
Hönkürüb-hönkürüb deyərmi:
«Gedən - qayıdar,
Köçən qayıtmaz!»
...Mən hələ hamısını demədim, çaşma,
Başqa cür fikirləşmək də mümkün,
Təqvim vərəqləyən adam.
Naharı harda eləyim,
Sabah kimin ad günü idi?

Oturub qalmadımmı bir yerdə çox,
Kimin bağına su verim?..
Ayaqqabı qalaşıb yatar astanasında,
Allahın hər günü evində qonaq -
Bir şey tapıb ala bildimi ayaqyalın qonşum?!
Sol qapı qonşumuz – yalqız qadının
Qapı dəstəyinə gecə görən kim
Asıb getdi bir səbət ağ gül! -
Səbəbi 8 martmı fəqət?..
...Vətən yolunda asılıb ölmək,
Vətənə «asılıb» yaşamaq da mümkün.
...Mən hələ hamısını demədim, şaşma,
Dedim ki, bir mülahizə olsun,
Təqvim vərəqləyən adam.
Hamı gərçi Uluğbəy deyil,
Əl-Biruni, ya ki Qaliley,
Vəlakin münəccim həvəsi ilə
Gözləyib tapmaq mümkündür
Bürclərdə günəşin hərəkətini.
Təqvim vərəqlərindən
Günbəgün, saatbasaat
İzləyib tapmaq mümkün!
Məsələn, cövzanın iyirmisində
Günəşin doğması – beş sıfır-sıfır.
Bir otuz – zenitə varması,
Batması - yeddi yarım...

Ötən günə şükür etmək gərək,
Dualar söyləmək gərək,
Təqvim vərəqləyən adam.
Lakin...
Xülasə, başqa cür olması da mümkün.
Dedim ki, bir mülahizə olsun,
Təqvim vərəqləyən adam.
Xüsusən, qəlbini bürümüş olsa
Əfi ilan kimi həsəd və qərəz,
Kibrü hava bürümüş olsa,
Hər şeyə və bütün nəsnəyə,
Batan günəşə həm
Mefistofel nəzəri ilə baxsa:
«Bilmirik, hal-hazırda, harda, haçan
Basan qədəminizin ölçüsünü!»

...Bir çiynimdə rəhman,
Bir çiynimdə şeytan -
Özün insaf ver bəndələrinə.

MİRPOLAD MİRZƏ

Özbəkistanın əməkdar mədəniyyət xadimi Mirpolad Mirzə 1949-cu ildə Qazaxıstanın Sayram rayonunda anadan oldu. 1971-ci ildə Daşkənd Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdi. «Yaş qvardiya» nəşriyyatının redaktoru, Yazıçılar İttifaqı sədrinin müavini oldu. Hazırda «Cahan ədəbiyyatı» jurnalı baş redaktorunun müavinidi. «Dan cilvəsi» adlı ilk şeir kitabı 1976-cı ildə çapdan çıxdı. Ona yaxın kitabı nəşr olundu. R.Həmzətov, O. Süleymenov, Y.Yevtuşenko və digər şairlərin şeirlərini özbək dilinə tərcümə etdi.

QƏHRİN SAÇAR...

Qəhrin saçar bitməyən həsrət,
Ümid gülü isə solmadı.
Qəlbə sirrin pıçıldar xəlvət:
«Axı, bu da həyat olmadı!..»

Acımadan hayqırdı: ağla,
Buz qılıncı göydə oynadı.
Sızıldadı bu çılpaq bağlar:
«Axı, bu da həyat olmadı!..»

Bilinməz onun məqsədi nə,
Nədən, niyə könlü dolmadı?!
Heç kim bilməz, aldı dil zədə:
«Axı, bu da həyat olmadı!..»

Hardadır, kilid vurar bahar,
Gah damağı isti çulğadi.
Niyə bunca gecikir qış, qar:
«Axı, bu da həyat olmadı!..»

Bahar gəlmiş, getsin qəm bəlkə,
Sən varsansa, ürək ölmədi!
Güllərini özlədik birgə,
«Axı, bu da həyat olmadı!..»

QARLAR GETDİ...

Qarlar getdi, çəkildi ayaz,
Mürgüləmə, ürəyim, oyan.
Bax, göy ot vermədə avaz,
Bax,tumurcuq oxşayır can.

Qanad taxdı şimala quşlar,
Yaşıl çölün nəfəsi sərin.
İndi nəğmə söyləməsən gər,
Yalan bütün söylədiklərin!

OSMAN ƏZİM

Özbəkistanın xalq şairi Osman Əzim 1950-ci ildə Surxandərya vilayətində anadan oldu. 1972-ci ildə Daşkənd Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdi. Ordu sıralarında xidmət etdi. Özbəkistan teleradiosunda işlədi, teatrlarda ədəbi əməkdaş oldu, Özbəkistan Prezidenti aparatında dövlət müşaviri işlədi. «İnsanı düşünmək» adlı ilk şeir kitabı 1978-ci ildə çap olundu. Ondan artıq şeir kitabının, dramların, kinossenarilərin müəllifidir. Pol Elüar, V.Vatsietis, Fazil Hüsnü Dağlarca və digər şairlərin şeirlərini özbək dilinə tərcümə etdi.

MƏN YOXAM

Mən yoxam. Yalanlar məni yox etdi,
Çin sözlər sevgimə qılmadı kərəm.
Niyə son görüşdə daş kimi sərtdin,
İndi seyr edirsən iztirab ilə.

Qapının zəngini açmadı heç kim,
Qapı nə gülümsər, nə də göz basar.
Əzizlik taxtından düşən, əzizim,
Paltarını sükut mıxından asar.

Sən teleekranın ağzını bağla,
Pəncərə ağlayır - bayırda duman.
İndi bir qəhvə iç yalqızlıq ilə,
Od da candan ötdü, soyudu çaydan.

Saat da səsləndi. Gecə tən yarı..
Boş qəlbim qüssədən dolmaz heç haçan...
Zil-zülmət otağın içində yarım,
İndi aydınladır üzünü tavan.

Yatırsan. Nə üçün titrədi nəfəs?..
Yenə «gəl» deyirsən?.. bu necə tələb?
Çağırma, mən yoxam, sinəmə deyil,
Yastığın üstünə göz yaşını səp.

Yox, yox, inanma! Bu şeirdən yandım,
Bu mənim özümə atdığım oxdur.
Axır bu dünyada mən sənsiz qaldım,
Hətta dərdləşməyə yalqızlıq yoxdur...

ŞÖVKƏT RƏHMAN

(1950 - 1996)

Özbəkistanın əməkdar mədəniyyət xadimi Şövkət Rəhman 1950-ci ildə Qırğızıstanın Oş şəhərində anadan oldu. Orta təhsilini başa vuraraq zavodda, mətbəədə işlədi. 1968-ci ildən vilayət qəzetində korrektor, ədəbi işçi kimi çalışdı. 1975-ci ildə Moskvada Ədəbiyyat İnstitutunu bitirdi. Qafur Qulam adına ədəbiyyat və sənət nəşriyyatında, Yazıçılar İttifaqında işlədi. Ağır xəstəlikdən sonra 1996-cı ildə Daşkənddə vəfat etdi. «Rəngin ləhzələr» adlı ilk kitabı 1977-ci ildə çap edildi. Bir neçə şeir kitabının müəllifidir. 1977-ci ildə seçilmiş əsərləri buraxıldı. Qarsia Lorka, Xuan Ramon Ximenes, Rafael Alberti kimi ispan şairlərinin şeirlərini özbək dilinə tərcümə etdi.

ƏSKİ ŞEİR

Bu böyük Turanın genliklərində
Gömülüb yatıbdı hədsiz xəzinə,
gömülüb yatıbdı illər dibində,
yanında nərdivan neçə dəfinə...
Yanıldım,
ruhumda pərakəndəlik
çox sirli əsrlər şəbistanında,
gəzərkən tapıram əziz bitiklər,
danişmənd ellərin qəbristanında.
Özgələr öz keçmiş incilərini
Zərrə-zərrə yığıb topladığı dəm,
biz qəfil küləklə üstü açılan
neçə cəvahiri gömdük yenidən.
Bu, qulluq bəlgəsi,
yoxsa korluqmu,
çəkindik yoxsa biz təhlükələrdən?
özgəyə verərək gövhəri, kanı,
qorxduqmu adamxor məhkəmələrdən?!
Vətənim deyirəm, bağrım qan olur,
bu necə vətən ki,
yurdu bir olmaz,
bu böyük Turanın genliklərində
boylar bir-birini qırar, yorulmaz?

Bu necə vətən ki,
Şahi-zindələr
zavallı bir elin arını satar,
şairlər səltənət pillələrində
mənsəbü mərtəbə dilənib yatar.
Siz, ey yol çaşanlar...
Elin qanında
Solur neçə-neçə səmavi çiçək!
Niyə ölmədiniz cəng meydanında
Ya Allah! Allahü əkbər! deyərək?
Ey elim,
haçandır bir sürü qəlbsiz
qəlbini qoparıb köksünü dələr,
bəs niyə çevirdin yana üzünü,
niyə diri qaldın, içmədin zəhər?!
Bu böyük Turanın genliklərində
gömülüb yatıbdı hədsiz xəzinə,
gömülüb yatıbdı illər dibində
yüksək bir aləmə
çıxan dəfinə.
Hələ də çox yolçu boynunu bükər,
ötər yetim kimi, əli cibində.
Hələ uzun yatar,
uzun və uzaq
böyük xəzinələr illər dibində.

YOLDAŞ EŞBƏK

Yoldaş Eşbek 1950-ci ildə Səmərqənd vilayətinin İştixan rayonunda dünyaya gəldi. 1977-ci ildə Daşkənd Dövlət Universitetinin filologiya fakültəsini bitirdi. «Həsərətlə yaşamam» adlı ilk kitabı 1981-ci ildə nəşr edildi. Ona yaxın şeir kitabının müəllifidir. İmam Qəzalinin «Ey fərzənd», Əhməd Lütfinin «Ögey ana», Olcas Süleymenin və digər ədiblərin əsərlərini özbək dilinə tərcümə etdi.

MƏNİ

Əgər Fərhad kimi doğulmasam,
Yox et məni.
Əgər Tahir kimi axmasam,
Etmə gəl
azad məni.
Şirin, Zöhrə olsan, bilməsəm,
Sat məni –
sat məni!
Kor olsam,
görməsəm,
At məni -
oyat məni!

İLIQ GECƏLƏRDƏ

İtlər hürüşər,
Eşşək anqırar.
Nə karvan keçər,
Nə zəlzələ var.

Qəribədir...
Bu elin güclüsü pusub duraraq,
Gördü ötüb keçir beş-altı uşaq.

Qışlaq yuxudadır,
(məlallı əhval) -
Elsiz qalan iri məmləkət misal.
Bu yerin güclüsü harda yürüdü?

Eşşək anqırır!
İtlər hürüdü!
Hara getmiş özü
Tomiris,
Şirak,
Səfərdə öldümü
Alpamış,
Teymur,
Göyə kim bağladı
Uluğ
Bəyi?
Şah!
aş!
Rux!
Harda?
Qayıdar

Kabildən Babur?!
Heyran qalan
şəlpə qulaq
kiçikmi,
evə dolan atmı,
xoruzmu?
Kimdir?
Sərətan olsa həm
nə üçündür?
çarəsiz əriklər
titrədi tir-tir!

ƏZİM SUYUN

Özbəkistanın əməkdar mədəniyyət xadimi Əzim Suyun (Suyunov) 1950-ci ildə Səmərqənd vilayətinin Nurata rayonunda anadan oldu. Sovxozda, rayon mədəniyyət evində işladi, orduda xidmət etdi. 1977-ci ildə Daşkənd Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdi. Qəzetlərdə, nəşriyyatlarda, mətbəə və kitab satışı idarəsində, Qafur Qulam adına ədəbiyyat və sənət nəşriyyatında işlədi, «Özbəkistan avazı» qəzetinin baş redaktoru oldu. Hazırda «Gülüstan» jurnalının redaktorudur. «Mənim asimanım» adlı ilk kitabı 1978-ci ildə çap olundu. Onlarla şeir kitabının müəllifidir. Dünya ədəbiyyatından bir çox nümunələri özbək dilinə tərcümə etdi.

ƏSİR

Yağılar, rəhimsiz, şəfqətsiz,
Anandan ayrıldın, dedilər.
Əsirin gözündə, taqətsiz,
Qətrə yaş görmək istədilər,
Qətrə yaş...
Məğrur qaldı məğrur baş.
Göz yaşı səbəbi - qəm, ələm,
Yarından ayrıldın, dedilər.
Gözünə baxdılar şad, xürrəm, -
Qətrə yaş görmək istədilər,
Qətrə yaş...
Məğrur qaldı məğrur baş.
Qisaskar xəbərlər bilməz hədd,
Vətəndən ayrıldın, dedilər.
Və onun gözündə sondu dərd -
Qətrə yaş görmək istədilər,
Qətrə yaş...
Bir qalxdı... Can idi həmən yaş!

1971

BAHADIRIN QILINCI

Bahadırın qılıncı sındı...
Son nöqtə. Qurtardı nağıl.
Həyətdə çox qəmgin, çox üzgün
Bir uşaq ağladı -
                əlində kitab.
Bahadırın qılıncı sındı,
Bahadırın qılıncı sındı,
Düşməninki bütün!

Hara getdi yapraq tək uşaq,
O harda ağladı, fəğan eylədi?
Uçub gedən vərəqlər isə
Küləklərə nağıl söylədi.
Uşaq hanı?.. Bilmirəm, amma,
Fərq etməz hardadır,
Bahadıra
        qılınc axtarır...

1978

İKRAM ATAMURAD

İkram Atamurad 1951-ci ildə Qaşqadərya vilayətinin Kəsbi rayonunda dünyaya gəldi. 1969-74-cü illərdə Daşkənd Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil aldı. «Şərq ulduzu» jurnalında şöbə müdiri işlədi. «Vaxt rəngləri» adlı ilk kitabı 1982-ci ildə çap olundu. Ona yaxın kitabı nəşr edildi. Bir neçə dastanı var. M.Dərviş, M.Bsisu, P.Neruda, O.Süleymen, Y.Yevtuşenko kimi şairlərin əsərlərini özbək dilinə tərcümə etdi.

ÇOXLUQ

Çoxluq gedən yol...
Çoxluq düşən oyun...
Çoxluq gedilən tərəf...
Çoxluq xoşlanılan nəsnə...
Çoxluq həsrət duyulan dövrə...
Çoxluq girilən küçə...
Çoxluq...
...sonu yox bu nəqlin, bu silsilənin,
seçmədim, içimə sinmədi bu dərs.
Kənar oldum çoxluq axışan səfdən,
Xeyrini qanmayan mən, tərs oğlu tərs.

Qarışmadım. Özümü dartdım,
Çoxluğa oxşmadım qəti.
Nə olsa - ağırı özümə aldım,
nə olsa - özüm qaldırdım onu...
Yalqıza yüklədim, yalqızın cəbrin
gözlərimə sürtdüm, dillə söylədim.
Özlədim, sığındım, ruhumun səbrin
yalqızın payına torpaq eylədim...

XURŞİD DÖVRAN

Özbəkistanın xalq şairi Xurşid Dövran (Xurşid Dövranov) 1952-ci ildə Səmərqənd şəhərində anadan oldu. 1977-ci ildə Daşkənd Dövlət Universitetini bitirdi. «Yaş qvardiya» nəşriyyatında işlədi. Hazırda Özbəkistan Televiziya və Radio Verilişləri Şirkətində çalışır. Xurşid Dövranın şeirləri 70-ci illərdən çap olunur. «Qədrdən günəş» adlı ilk kitabı 1979-cu ildə nəşr edildi. Bir neçə şeir kitabının müəllifidir, səhnə əsərləri və tarixi hekayələri var. R.Həmzətov, O.Mandelştam, O.Vatsietis və digər şairlərin şeirlərini özbək dilinə tərcümə etdi.

PAYIZ NAĞILI

Məhsul yığan qızlar,
Budaqdakı quşlar tək yüngül,
Qamətli - xəyal,
Günəş ətri yağar çöhrələrindən.
Onlar dolub gedən xəyallar kimi
Cərgələrə saçılan,
Arzuları mizanlar kimi
Ağappaq uçub yürüyən
Aydın küləklərə asılan.
...Boğulub oxuyan
Quşdan həm uzaq,
Kəndimizin geniş çöllərində,
Bəyaz tarlalarda köksünü titrək,
İlıq, mavi küləklər öpüb,
Yuxulayıb yatar,
Məhsul yığan qızlar,
Düşlərini günəşə gömüb...

TURSUN ƏLİ

Tursun Əli (Ormanov) 1952-ci ildə Fərqanə vilayətinin Quva rayonunda doğuldu. 1981-ci ildə Daşkənd Dövlət Universitetinin filologiya fakültəsini bitirdi. «Çolpan», «Ədalət» nəşriyyatlarında işlədi. Hazırda Yazıçılar İttifaqında çalışır. «Ürəkdəki sözlər» adlı ilk şeir kitabı 1983-cü ildə nəşr olundu. Ona yaxın kitab müəllifidir.

İNAQU

1
Gecələr ölüb qalıram,
kimsə almır cəsədimi,
qəbristana gedirəm özüm.
2
Gecə çöldə
çəyirtkə cırıldar,
mən dinlərəm səsimi udub.
3
Dilimdə sözlər çox,
bəzilərini
zəncirləyib yanan dil.
4
Evimdən uzaqdayam,
ancaq yaşaram evimdə.
5
Köksümdən gedən durnalar,
qayıtdınızmı?
indi mürgülü duyğular oyanar şəksiz.

İnaqu – pıçıltı ilə deyilən.Vyetnam.

TAHİR QƏHHAR

Özbəkistanın əməkdar mədəniyyət xadimi Tahir Qəhhar (Qəhharov) 1953-cü ildə Nəmənqən vilayətinin Törəkurqan rayonunda dünyaya göz açdı. 1975-ci ildə Daşkənd Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdi. Özbəkistan radiosunda, «Şərq ulduzu» jurnalında işlədi, Qafur Qulam adına ədəbiyyat və sənət nəşriyyatı baş redaktorunun müavini oldu. Hazırda Dünya Dilləri Universitetinin dosentidir. «Ağ ərik» adlı ilk şeir kitabı 1980-ci ildə çap edildi. Bir neçə kitab müəllifidir. Qabriel Qarsia Markesin «Aşkar qətl əhvalatı», Nihal Atsızın «Bozqurdların ölümü» romanlarını, Nəcib Fazil Qısakürəyin şeirlərini özbək dilinə tərcümə etdi.

ÜMİDSİZ AŞİQ

neçə gündür gözüm görməz,
göz önümdə bir qaranlıq,
varlıqsız bir kir qaranlıq.

kimsə bilməz, halım sormaz,
göz önümdə səssiz aləm,
yaşamdan xəbərsiz yaşam.

neçə gündür könlüm gülməz,
xəyalən baxdım ulduza,
o oxşar yox olan gözə.

ƏSKİ DOST

Qəmlənirəm, gözdə yaşım bir bulaq, gəl, əski dost!
Ağlayanlar naləmə assın qulaq, gəl, əski dost!

Ayrılıb getdi neçə can dostlarü qandaş-uruğ,
Bir dönüb baxmaz bunlar, yağı yumşaq, gəl, əski dost!

Almayıb doğru sözüm, bir küncə sürmüşlər özüm,
Qalmadi insaf, çoxaldı kin, nifaq, gəl, əski dost!

Hanı bəxt deyib yola çıxanlar harada batdılar:
Gördilər: körpü xarab, düz yol iraq, gəl, əski dost!

Gördülər: bu da adam deb heç birin soranı yox,
Göydə olsan, en də, halim qıl soraq, gəl, əski dost!

Mindilər əski qayığa, kürəyi yox, həm deşik…
Vah, qayıqçı çıxdı əlsiz! Nə sınaq? Gəl, əski dost!

İki sahilə dolubdur iki dünya oğrusu,
Hər quldur mən qoruqçu der, bir bax, gəl, əski dost!

Əski günə qayıdaq, qıl qaytarıq, der necə gör,
Nə taparlar gündüzlər yaxıb çıraq?!.. Gəl, əski dost!

Şərmühəmməd, Baykara, Babur, Teymurlar gəlməsə,
Gəl Oğuzxan! Tonyukuk! Gəl, gəl Şiraq, gəl, əski dost!

OSMAN QOÇQAR

Osman Qoçqar (Qoçqarov) 1953-cü ildə Buxara vilayətinin Şafirqan rayonunda dünyaya göz açdı. 1975-ci ildə Daşkənd Dövlət Universitetinin filologiya fakültəsini bitirdi. «Özbəkistan» nəşriyyatında, «Yaşlıq» jurnalında işlədi, Qafur Qulam adına ədəbiyyat və sənət nəşriyyatının baş redaktoru, ədəbiyyat fondu nəşriyyatının direktori oldu. Hazırda «Mənəviyyat» nəşriyyatının baş redaktorudur. «Həyəcana gömülən dünya» adlı ilk şeir kitabı 1982-ci ildə çap edildi. Onlarla kitabı, tərcümələri var. Hüseyn Cavidin «Topal Teymur» və «Şeyx Sənan» dramlarını, Yusif Səmədoğlunun «Qətl günü», Anarın «Beş mərtəbəli evin altıncı mərtəbəsi» romanlarını və digər əsərləri özbək dilinə tərcümə etdi.

İQRAR

Akiflə Yaşara

Əzizim, bəxtiyarım,
Könlümün taxtı yarım.
Üzündə göz izi var,
Sənə kim baxdı, yarım.
Azərbaycan bayatısı

Yaman sözdən iraq dedim,
Ağ yuyub, ağ göründüm.
Yaman gözdən iraq dedim,
Ağ libasa büründüm.
«Əzizim, bəxtiyarım,
Könlümün taxtı yarım.
Üzündə göz izi var,
Sənə kim baxdı, yarım».
«Til» nə dedim, «dil» dedin,
«Dil» nə dedim, «dil» dedin.
«Mənim tilim, dilim bir,
Yoxlama, qafil» dedin.
«Əzizim, bəxtiyarım,
Könlümün taxtı yarım.

Üzündə göz izi var,
Sənə kim baxdı, yarım».
Bəsdir bunça üqubət,
Bunca cəbrü sitəmlər.
Əda olur aqibət
Ya alov, ya səməndər.
«Əzizim, bəxtiyarım,
Könlümün taxtı yarım.
Üzündə göz izi var,
Sənə kim baxdı, yarım».
Ötüb iki dəryadan,
Ötüb böyük dənizdən,
Bir gün səni qucaram,
Sənin ilə dəngsizəm.
«Əzizim, bəxtiyarım,
Könlümün taxtı yarım.
Üzündə göz izi var,
Sənə kim baxdı, yarım».

MƏHƏMMƏD YUSİF

(1954 - 2001)

Özbəkistanın xalq şairi Məhəmməd Yusif (Məhəmmədcan Yusifov) 1954-cü ildə Əndican vilayətinin Mərhəmət rayonunda doğuldu. Rus Dili və Ədəbiyyatı İnstitutunu 1978-ci ildə bitirdi. Respublika kitabsevərlər cəmiyyətində, «Daşkənd axşamı» qəzetində, Qafur Qulam adına ədəbiyyat və sənət nəşriyyatında, «Təfəkkür» jurnalında işlədi. 1997-ci ildən ömrünün sonuna qədər Yazıçılar İttifaqı sədrinin müavini oldu. İlk şeirləri 1976-cı ildə dərc olundu. «Tanış qovaq» adlı ilk kitabı 1985-ci ildə çap edildi. Ondan artıq kitabın müəllifidir.

BİZ BƏXTLİ OLARIQ

Meyli bəs kimədir,
bilsə,
bilməsə,
Onlara qoşulub
Ağlaşardıqmı?
Biz bəxtli olarıq,
Xuda istəsə,
Xuda istəməsə
Rastlaşardıqmı?

Reyhanın ətrini
yollarıma səp,
Tap məni hər axşam
Ay çıxanda sən.
Fəqət
ağlama gəl,
suçum yox deyib,
Suçun
anandadır –
sən çox gözəlsən...

Mənə bir təbəssüm
əta et, ey yar,

Nur damsın
ləblərin sahillərindən.
Özün de,
Sən tək qız
Yenə harda var,
Kirpikləri uzun
kəkillərindən?..

Çəkilib yaşama
xəyal içində,
yayıl,
zövq al, canım,
qovrulma qəmdə.
Qeybətlərə səbr et,
Töhmətə səbr et:
Sən bircəsən, axır,
Parlaq aləmdə.

Mən isə aşiqin
sənin qəribə,
Tündən söz
borc alıb
dan üzü verən.
Sənin yanında, həm
səni axtarıb,

Sənin yanında həm,
Səni özləyən.

İstə,
diz çökərəm
hazır önündə,
Sevdim,
sevdiyimdən
utanmaq neyçün?
Bütün fəriştələr
sənin qəlbində,
İcarəyə duran
qızlar mən üçün!..

Biz bəxtli olarıq,
Xuda istəsə.
Xuda istəməsə,
Rastlaşardıqmı?

SURƏT

Mənim kimliyimi
Bilmədi heç kim.
Mən bir qəribəyəm,
Mən əlahiddə.
İstərəm gözümün
Yaşını içim,
Dilimi çeynəmək
İstərəm hətta.
Ay mənim çiynimə
Oturub qalar,
Günəş qovğa salar
Mənim yoluma.
Xəyal buxovundan
Çıxmayıb qalan
Ömrümü tapşırıb
Qoydum könlümə.
İndi daşa desəm,
Öpər izimi,
Yerlərə uzansam -
Yer duyar qürur.
Barmağını öpdüm
Sevdiyim qızın,
Əli yanıb getdi
Alovlanıb gur.

Yabanı ördəyə
Verdim sevgimi!..
Ördək uçdu-getdi,
Qəmlənib qaldım.
Heyrəti apardı
Qanadında o.
Kim məni aldatsa -
Qarğışa saldım,
Daha aldatmasın
Həyatında o.
Yandı, yanıb getdi
Kəkilləri, son,
Çırpınıb ürəyi
Yandı sonacan.
Əynində yandı don,
Ancaq köynəyi
Eşqin bayrağına
Çevrildi əlvan!..
Öpdüm o bayrağı,
O bayraq əlvan,
Alov tən,
Alov can,
Alov hiss-həvəs.
Qızıl qor tökülən
Gərdəyə tərəf
Atdım mən özümü

Misli odpərəst.
Oyansam, yorğan kül,
Ağlar sevgilim.
Ağlayan yarımı
Qucaqlayımmı?
Ayı basan gül tək
Əzildi könlüm,
Qaldım kül yorğanda,
Döşəyim - torpaq.
Qıvrılıb yataram
İlanlar ilə.
İlana güvəndim
Yara yox ancaq,
İlan
vurar, amma
Danışmaz yalan!..

Mənim kimliyimi
Bilmədi heç kim.
Mən bir qəribəyəm,
Mən - əlahiddə.
Maralın qanını
İstərəm içim,
Əqrəbi çeynəmək
İstərəm hətta.

MİRZƏ GƏNCƏBAY

Mirzə Gəncəbay (Gəncəbayev) 1956-cı ildə Surxandərya vilayətinin Sarıasiya rayonunda doğuldu. 1979-cu ildə Daşkənd Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdi. «Günəşə baxan ev» adlı ilk şeir kitabı 1983-cü ildə nəşr edildi. A.S.Puşkinin «Yevgeni Onegin» əsərini, Fəridəddin Əttarın «Təzkirət ül-övliya» əsərini və digər kitabları özbək dilinə tərcümə etdi.

OYAQ UYQU

Bu nə uyqu -
Anlamıram doğrusu,
Yollar yorub, düşlər görüb yataram.
Yatırammı, oyağamı, bilmirəm,
Baş üstündə başlar görüb yataram.

Dostlar! Guya bağrım mənim xun olmaz,
Həyat qəddar deyil, dünya dun olmaz,
Yarım dünya,
Vətən üzrə tün olmaz,
Mən qap-qara saçlar görüb yataram.

Dostum dünya!
Məğrur-məğrur yürü sən,
Törə başın ilə qulsan, köləsən,
Başım üzrə çox mənalı güləsən,
Dişlərində uclar görüb yataram.

Atam dünya!
Çox türfədir mənzərin,
Xarlar edər gah dirilik mənsəbin.
Yuxlasam da, atam dünya, mən sənin
Ər başında işlər görüb yataram.

Anam dünya!
Axır bağrın gen sənin,
Düşlərində təbəssüm qıl, mən sənin!
Yuxlasam da, anam dünya, mən sənin
Gözlərində yaşlar görüb yataram.

Nə məlamət, nə həqarət məniməm,
Oyağam da, doluyam da sənənəm,
Yuxlasam həm, balam dünya, sənənəm,
Əllərində daşlar görüb yataram!

Yuxlasam həm, mən oyağam bağrında,
Öldü demə, bir gün ölən çağımda,
Vətən dünya!
Gələcəyin haqqında
Məngü gözəl düşlər görüb yataram!..

TÖRƏ MİRZƏ

Törə Mirzə (Törəmirzə Cabbarəli Dədəmirzə oğlu) 1956-cı ildə Nəmənqən vilayətinin Çardaq rayonunda anadan oldu. 1979-cu ildə Daşkənt İncəsənət İnstitutunun teatrşünaslıq fakültəsini bitirdi. Ədəbiyyatı təbliğ bürosunda, teleradioşirkətdə işlədi, Yazıçılar İttifaqı sədrinin müavini oldu. Hazırda universitetdə dərs deyir. İlk kitabı 1983-cü ildə işıq üzü gördü. Ona yaxın kitabı var. Aqati Kristinin və Əziz Nesinin əsərlərini özbək dilinə tərcümə etdi.

QURUYAN AĞAC

Quruyan ağacım, göz yaşımı iç,
Dəymiş meyvələri alıb getdilər.
Çuvala, kisəyə salıb getdilər,
Quruyan ağacım, göz yaşımı iç.

Sənə yetişincə tükəndi gücüm,
Suyu başqa yola burub qoyublar.
Torpaqda qanını quru qoyublar
Ona yetişincə tükəndi gücüm.

Quruyan ağacım, göz yaşımı iç,
Meyvəni yesə də fəqət özgələr,
Sənə ürəyimdə şəfqət göyərər,
Quruyan ağacım, göz yaşımı iç,

FƏRİDƏ BÜTƏYEVA

Fəridə Bütəyeva 1956-cı ildə Kokand şəhərində dünyaya gəldi. 1977-ci ildə Kokand Pedaqoji İnstitutunu bitirdi. Yeddi şeir kitabı nəşr edildi. Tarixi bir dram əsərinin müəllifidir.

SƏNDƏN

Səndən
ş ə f q ə t
gözləməkdənsə,
Quruyan ağaca ağlasam,
Ətəyimə alma doldurar.

Səndən
m e h r
gözləməkdənsə,
Əjdəhaya varıb bozlasam,
Bağrımda balam tək yuxlayar.

Səndən
v ə f a
gözləməkdənsə,
Köksümə xəncərlər əksəm,
Xətasız göyərər, gül açar!

SİRACƏDDİN SEYYİD

Siracəddin Seyyid 1958-ci ildə Surxandərya vilayətinin Sarıasiya rayonunda anadan oldu. Özbəkistanın xalq şairi adını aldı. 1979-cu ildə Daşkənd Dövlət Universiteinin jurnalistika fakültəsini bitirdi. Hazırda Yazıçılar İttifaqı sədrinin müavinidir. «Ruhumun xəritəsi» adlı ilk kitabı 1985-ci ildə nəşr edildi. Ona yaxın şeir kitabının müəllifidir. A.Voznesenskinin «Əbədi azuqə» əsərini özbək dilinə tərcümə etdi.

ÜMİD

Yurdum, mənə zər gərəkməz zərlərindən,
Kirpiklərim öpsələr bəs gərdlərindən.
Mən bir nəsim olub gəldim, mən bir nəsim,
Deyib ötsəm, desəm köhnə dərdlərindən.

Payladılar səni namü rütbələrə,
Qəmgin oldun, batıb qaldın şübhələrə.
Hilalları qaytar yenə qübbələrə,
Keçmişlərə deyə-deyə zorlarından.

Mənə qədim minarədən bir səs yetər,
Ol səs mənim könlüm axır sərfeyz edər.
Mənə dünya gərək deyil, bir çöp yetər
Yəsəvilər yatan əziz yerlərindən.

Ağsaraya nə zaman ki üz qoyandım mən,
Sönmüş şanü şövkətnə heyrandım mən.
Bir balaca şeir deməyi öyrəndim mən
Çinarlarda yuxu yatan bərglərindən.

Bu dünyada könüllərə çıraq yaxsam,
Məzarların sükutundan bir dərs alsam,
Duru, şəffaf bulaq kimi axıb qalsam
Allahyarlar nəzər qılan carlarından.

x x x

Ey, xudam, düşmənim mərd olsa bəsdir,
Sinəmdə atəşin dərd olsa bəsdir.
Kirpiyimə Mövlanadan bir qubar,
Yəsəvidən zərrə gərd olsa bəsdir.

x x x

Ömr desən, abü gil yanar, ey dost,
Bir anda nə ayü il yanar, ey dost.
Göydən ulduz uçsa, yelkən yanacaq,
Yerə bağır versən, dil yanar, ey dost.

EŞQABİL ŞÜKÜR

Eşqabil Şükür 1961-cı ildə Surxandərya vilayətinin Qumkurqan rayonunda dünyaya gəldi. 1984-ci ildə Daşkənd Dövlət Universitetinin filologiya fakültəsini bitirdi. «Ürəyi öyrənmək» adlı ilk şeir kiabı 1984-cü ildə çap olundu. Daha sonra beş şeir məcmuəsi nəşr edildi. «Aqibət axşamı», «Dünyanın küçəşi» adlı hekayə kitablarının müəllifidir.

DİLİMİ YANDIRDI

Dilimi yandırdı bülbülün südü,
Yaxdı damağımı gül içirən qan.
Mən iki dünyanı atlayıb-ötüb,
Ağzıma atdığım cəmisi talkan (1).

Gözümü buzlatdı cəhənnəm odu,
Könlümü xar qıldı bu «gülzar, çəmən».
Mən iki dünyanı atlayıb-ötüb,
Göz açıb gördüyüm cəmisi duman.

Qulağı kar etdi haqqın sükutu,
Bu sükutmu, yoxsa dilsiz qadağan.
Mən iki dünyanı atlayıb-ötüb,
Eşidə bildiyim cəmisi yalan!

---

(1) Talkan – qovud deməkdir.

BƏHRAM RUZİMƏHMMƏD

Bəhram Ruziməhəmməd 1961-ci ildə Xarəzm vilayətinin Şavat rayonunda dünyaya gəldi. 1984-cü ildə Daşkənd Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdi. 1987-ci ildə «Səssiz qədəm» adlı şeir kitabı çapdan çıxdı. Daha sonra altı kitabı işıq üzü gördü. XX əsr alman ədəbiyyatı nümunələrini özbək dilinə çevirdi.

İNSANIN SƏRGÜZƏŞTLƏRİ

Mən qəraib meyvəyəm,
Yalqızlıq ağacından üzülən meyvə.
Yox, mən yerə düşmədim,
yer qopub gəldi mən tərəfə
və budaqdan asıldım.
Bir sapsarı meymun
ağ fəriştə ilə söhbətləşirdi.
Fəriştə şəhadət barmağı ilə
işarə edirdi asimana,
qəhqəhə ilə gülürdü meymun.
Fəriştə təkrar və təkrar
Göyə uzadırdı o barmağını,
Qarnını tutaraq gülürdü meymun,
fəriştə üçüncü mərtəbə ciddi,
söz deyirdi meymuna.
Meymun şaşqın halda
mənə baxdı
və o ləhzədə
Yalqızlıq ağacından üzüldüm birdən,
söhbət şəbədəsi şıpp üzdü məni,
qəraib meyvəyəm,
Yalqızlıq ağacı meyvəsi.

FƏXRİYAR

Fəxriyar (Fəxrəddin Nizamov) 1963-cü ildə Səmərqənd vilayətinin Xatirçi rayonunda anadan oldu. 1988-ci ildə Səmərqənd Dövlət Universitetinin filologiya fakültəsini bitirdi. 1987-ci ildə «Dərdin şəkli» adlı kitabı çap olundu. Beş şeir və publisistik məqalələr kitabı işıq üzü gördü.

GÜLÜM

Ürəyi tikərəm, təvəkkül bu - bir,
Susaram, hicranın çıxması nə sirr?
Gözümdə arzular dolanar gir-gir,
Gulüm,
rüxsarını görəmmədim bir.

Başımda quzğun tək çərx vurar günlər,
Nə dər var, nə şeir. Var sənsiz tünlər,
Köksümdən ay olub atıldı bunlar,
Gulüm,
rüxsarını görəmmədim bir.

Nə rast ki, dünyanın yalanları bol,
Verməyi müşküldür, alanları bol,
Nə qəm ki, gedəndən qalanları bol,
Gulüm,
rüxsarını görəmmədim bir.

Nə bahar, mən onu özləmə qoydum,
Nə səbr kasası - hicr, mey qoydum,
Nə arzu etdinsə, arzuya yozdum.
Gulüm,

rüxsarını görəmmədim bir.

Güllərə baxıram, gülüm yox mənim,
Yollara baxıram, yolum yox mənim,
Yandım, kösöv oldum, külüm yox mənim,
Gulüm,
rüxsarını görəmmədim bir.

Nə ney ki, boğazda nəvalar qoyar,
Qabırğam yerində həvalar qoyar,
Ağ quşun boynunda suallar qoyar,
Gulüm,
rüxsarını görərəmmi bir.

QULAM MİRZƏ

Qulam Mirzə (Mirzəyev) 1964-cü ildə Qaşqadərya vilayətinin Qarşı rayonunda anadan oldu. 1989-cu ildə Daşkənd Dövlət Universitetini filologiya fakültəsini bitirdi. İki şeir kitabının müəllifidir.

DURNALAR...

Durnalar, sizinlə birgə dönərəm,
Göbək qanım daman yerə dönərəm.

Sizin təsbehiniz - mənim təşbehim,
Düzüm-düzüm düzüb, şeirə dönərəm.

Yüz ildir quruyub dağ oldu dilim,
İndi o laləzar yerə dönərəm.

Soyuğun qəhrindən, zülmət bağrından
Günəşə dönərəm, nura dönərəm.

Axır, haçanacan giryan, sərqərib,
Həsrətində müntəzirə dönərəm?..

Durnalar, sizinlə birgə dönərəm...

SƏLİM AŞUR

Səlim Aşur 1964-cü ildə Tacikistanın Kurqantəpə rayonunda dünyaya göz açdı. 1989-cu ildə Daşkənd Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdi. Hazırda «Türküstan» qəzetinin baş redaktorudur. «Yaşıl bəng» adlı ilk şeir kitabı 1994-cü ildə nəşr olundu. Daha sonra beş kitabı işıq üzü gördü. A.Blokun, İ.Buninin, A.Fetin şeirlərini, J.P.Sartrın, K.Paustovskinin əsərlərini özbək dilinə çevirdi.

SİZ SABAH GƏLİRSİNİZ

Siz sabah gəlirsiniz,
Bu xeyir xəbəri yetirdi simlər.
Bu xətərnak yolda karvanı
udan vəba –
ahəngdar qumlar.
Siz sabah gəlirsiniz -
Səba
Səlimə həm gülablar qoydu.
Gözünüzdən öpdüm. Ləblərim
Ulduzlara dəyən tək yandı.
Ləbinizdə - beşikdə cahan,
Cahanları soydum məstanə.
Siz sabah gəlirsiniz,
Bugün yeni rənglər geyər astanə.
Siz sabah gəlirsiz
«1» tək,
Adamlara naməlum sirr tək.
Görərsiz -
Sevgimi asıb qoyaram -
Yekşənbədə yuyub
Yayılan kir tək.
Siz sabah gəlirsiniz,
Hazır

Ürəyimi qoydum ortaya.
Əgər duzlar udub alsalar,
Tapammazsız məni sabah.
Siz sabah gəlirsiniz, qaçıb
Təqib edən firəngi nəğmədən.
Siz gəlirsiniz çaşıb, amma mən
Çıxıb getmiş olaram evdən.
    Siz sabah gəlirsiniz...
Bağa
libasları xəzan tək atıb.
Bugün mənim çöllük qışlağa
Getməyim gələr
    Gözümü yaşlayıb.
Siz sabah gəlirsiniz,
Ancaq
Bugün düşüb qaldım mən əsir.
Bu dünyada nə tapsam,
Mənə hazır gərəkdir, hazır.
Siz sabah gəlirsiniz,
Bugün ay nuruna lim-lim dolaram.
Siz sabah gələrsiniz,
Amma sabah mən ölmüş olaram...

MİNXACƏDDİN MİRZƏ

Minxacəddin Mirzə (Hacimətov Minxacəddin) 1965-ci ildə Əndicanda dünyaya göz açdı. Özbəkistanın əməkdar jurnalistidir. 1990-cı ildə Daşkənd Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdi. «Nilufər» adlı ilk kitabı 1994-cü ildə, «Vüsal xəbəri» kitabı isə 2003-cü ildə nəşr edildi. A.S.Puşkinin, R.Həmzətovun şeirlərini özbək dilinə tərcümə etdi.

ŞEİR ÖZÜ NƏDİR...

Şeir özü nədir, sevgi kəlməsi,
Aydın bulaq gülü, şəffaf bir duyğu!
Ya könül ağısı, şüur gövhəri,
Ya heyrət, ya həsrət, ən şirin qayğı!

Şeir nə, peykanmı, ruha sancılan,
Ya qəlb ağacının sirli yarpağı?
Bəlkə nilufərdir qəlbdə açılan,
Könüldə çağlayan Məcnun fərağı.

Şeir nə, dərddirmi, ya da zikr açıb,
«Ənəlhəqq» deyən bu könlümün ahı?
Qəlbdəki cənnətmi, bağları nəcib,
Bəlkə də ruhdakı dərviş dərgahı?

Şeir nə, tilsimli zülmət vücudun
Dibindən ay kimi çixan ifadə?
Könül dağlarına qonan berkutun
Odlu nigahından tökülən badə?

Anlamaq zamanı dil söylər daşıb,
Çin şeir, bir feniks, dilə rəvadır.
O – müjdə, yeddi qat göylərdən aşıb,
Haqdan gəlib çatan təzə havadır...

İQBAL MİRZƏ

İqbal Mirzə (İqbalcan Mirzəliyev) 1967-ci ildə Fəqanə vilayətinin Bağdad rayonunun Quşdəyirman kəndində anadan oldu. Özbəkistanın xalq şairi adına layiq görüldü. «Ürəyin şəkli» adlı ilk şeir kitabı 1993-cü ildə işaq üzü gördü. Daha sonra altı kitabı nəşr olundu.

YALQIZ

Milyon ildə məni yaratdi həyat,
Sıra dağlar məni sorub çökdü diz.
Necə anlamazsan, necə bilməzsən,
Axı, mən bircəyəm, yeganə, yalnız.

Buğlanıb, haradan tökülür bu su,
Günəşdən işarə - köz kimi ulduz.
Onlara oxşamam mən heç doğrusu,
Axı, mən bircəyəm, yeganə, yalnız.

Hər elat ad verər özü küləyə,
Minbir adı ilə yaşayar ulduz.
Harda rast gələrsən digər taleyə,
Axı, mən bircəyəm, yeganə, yalnız.

Nəfəsim qənimət, sözüm - qənimət,
Faciə - payımdan üzülən hər iz.
Mənim baxışlarım ən əziz nemət,
Axı, mən bircəyəm, yeganə, yalnız.

Varıb yaradana söylərəm səni,
Özü hökm eləsin, adil və xalis.
Qayıdıb gəlmərəm, düşünürsənmi?
Axı, mən bircəyəm, yeganə, yalnız.

KÖNÜL

Könlüm ağrıyır mənim,
Könlüm ağrıyır.
Topuğuma düşüb gedən könlüm.
Bir mələk çökdürmüş könlümü,
Bir fələk çökdürmüş könlümü,
Çərxi-fələk çökdürmüş könlümü,
Natəvan könlümü.

Ay diləyib getdi onu,
Külək yolub getdi onu,
Quyuya düşən könlümü.
Zədəli könlümü qaldırmaq üçün
Bir aləm çöküb getdi,
Anam çöküb getdi.
Anam...

XASİYYƏT RÜSTƏMOVA

Xasiyyət Rüstəmova 1971-ci ildə Nəmənqən vilayətinin Çust rayonundakı Almas kəndində dünyaya göz açdı. 1993-cü ildə Daşkənd Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdi. «Asimandakı ev» adlı ilk şeir kitabı 1997-ci ildə nəşr edildi. M.Svetayeva və A.Axmatova yaradıcılığından bəzi nümunələri özbək dilinə çevirdi.

ÜRƏYİM GETMƏDƏ

Ürəyim getmədə
Arxaya dartıb,
Qiyamət başlayan ağır tənimdə.
Özüm istəməyən işlərdən artıb
Ağlamağım gəlir
Qəfil mənim də...
Yola çıxan kimi
Ayaq çəkər baş.
Qüvvəsiz əllərim qılmaz himayə,
Üzünü çevirib gözümdəki yaş
Ötən günlərimdən
Qılar hekayə.
Nağıla gedimmi,
Yoxsa, bilmirəm -
İşə bax, bu vücud çıxarar hökm.
Ürəyim sən üçün,
Özüm üçün həm
Qədərsiz ağlamaq istəyir bugün.

Atabəy RÜSTƏMBƏY

1973-cü ildə Kokand şəhərində anadan oldu. Kokand Dövlət Pedagoji İnstitutunda, Bursa Uludağ Universitetində ali təhsil aldı. Özbəkistan Elmlər Akademiyasının aspiranturasını və doktoranturasını bitirdi. Filologiya elmləri namizədi, dosentdir. Hazırda Əlişir Nəvai adına Ədəbiyyat Muzeyinin şöbə müdiri və «Ədəbiyyat güzgüsü» jurnalının məsul katibidir. Ədəbiyyat tarixi, xüsusilə təsəvvüf qaynaqları, Həzini, Əbdülqadir Geylani, Zahirəddin Məhəmməd Babur və XVI əsr özbək ədəbiyyatı haqqında monoqrafiyalar müəllifidir. Şeir və hekayələri 1997-ci ildən çap olunur. «Yaşıl diləklər» adlı bir şeir kitabı nəşr edildi. Əbdülqadir Geylani, Niyazi Misri, Ömər Seyfəddin, Nəcib Fazil və Bəxtiyar Vahabzadənin bir sıra əsərlərini özbək dilinə çevirdi.

ƏZAB

Cəlaləddin Rumiyə ithaf

Gəlmək bunca əzab…
Sevmədəyəm, gəl!
Getmək uzaqlığın ən son köşəsi.
Sən unut dünyanı, sən yanıma gəl,
Gözləmək – sevməyin ən son gecəsi.

Getmək bunca əzab…
Könlümdəki sirr!
Ümidlər boşuna, inamlar zaval,
Sən unut onları, sən qanıma gir,
Gözlə du, müjdə ver, ürəyimdə qal.

Gəlmək bunca əzab…
İmanıma dol!
Ələmi yenərək biz qalib gələk,
Sən unut ömrünü, sən canımda ol,
Gözləməyin sonu imanla ölmək.

BƏKTEMİR PİRNƏFƏSOV

Bəktemir Pirnəfəsov 1975-ci ildə Növbahar rayonunun Kəvabi kəndində dünyaya gəldi. 1998-ci ildə Daşkənd Dövlət Universitetinin jurnalistika fakültəsini bitirdi.

1996-cı ildə «Dan yaxası» adlı şeirlər kitabı nəşr edildi.

SAÇLARIMIN...

Saçlarımın qara rəngi tükəndi,
Ovcumda qalmadı gələcək izi.
Alnıma bəxt yazıları üstündə
Ömrüm dartıb çıxdı çuxur-çuxur cızıq.

Ətrafa kor kimi baxıb yanaram,
Ətri unudulan güllər də soldu.
Qəlbimi yuyaraq ötdü fəsillər,
Ümidlər doğuşda boğulub öldü.

Uzaqlarqa qaçıb gedən xatirə,
Xəyal başını vurar dünyanın dörd tərəfinə,
Öz qanına bələnib yatar qəfəsdə.

Heç cür ayrılıq iztiraba salmaz məni,
Fəqət gözlərimin açıqlığı əziyyət verir
Aldanıb gedişə gələn həyatda...

SON SÖZ

Bu antologiyanın yaranmasının qısa və maraqlı tarixçəsi var. 2009-cu il martın 31-dən aprelin 4-dək İstanbulda TÜRKSOY, Avrasiya Yazarlar Birliyi və Maltəpə Universiteti tərəfindən «Türk Ləhcələri Arasında Uyğunlaşdırma Çalışmalarının Bugünkü Durumu və Qarşılaşılan Problemlər» mövzusunda Beynəlxalq simpozium keçirildi. Həmin tədbirdə Türk Dünyasının bütün guşələrindən gəlmiş alimlər və yazıçılar, tərcüməçilər və naşirlər iştirak edirdi. Olduqca səmərəli keçən simpoziumda çoxlu məruzə və çıxışlar dinlənildi, fikir mübadiləsi aparıldı. Axırda simpozium xüsusi tövsiyələri və yekun bəyannaməsi qəbul edərək belə tədbirlərin hər il keçirilməsini, türk dillərinə uyğunlaşdırma işinin elmi əsaslar üzərində qurulmasını, müvafiq kitab, toplu və antologiyalar nəşr edilməsini qərara aldı.

Simpoziuma qardaş Özbəkistandan qatılanlar arasında tanınmış tərcüməçi və ədəbiyyatşünas Babaxan Şərif də vardı. Biz onunla Aşqabadda keçirilən bir simpoziumda tanış olmuşduq. Mən ondan XX əsr özbək şeiri antologiyası tərtib etməsini və mənə göndərməsini xahiş etdim. Babaxan Şərif buna məmnuniy-

yətlə razılıq verdi. Biz TÜRKSOY-un baş direktoru Düsen Kaseinovu öz planımızla tanış etdik. O bizə hər cür dəstək verəcəyini bildirdi. Bizim ümumi planımız belə idi: Babaxan Şərif antologiyanı tərtib edəcək, mən isə onu azərbaycancaya uyğunlaşdıracağam. Kitabı tanınmış naşir, «Min Bir Mahnı» nəşriyyatının sahibi Rafiq Babayev nəşr edəcək. Türk Dünyasına xidmət olduğu üçün bütün bu işlər təmənnasız görüləcək.

Elə də oldu. Babaxan Şərif yayda antologiyanın elektron mətnini göndərdi. Mən dərha işə başladım və bir neçə ay ərzində uyğunlaşdırmanı tamamladım. Bu müddət ərzində tərtibçi ilə internetdə dəfələrlə yazışaraq bu və ya digər sözün (xüsusilə qafiyə sözlərin) mənasını dəqiqləşdirməyə çalışdım. Məlum olduğu kimi, şeirdə sözlər çox zaman öz müstəqim mənasında deyil, məcazi mənada işlənir. Nəhayət, bu ağır işi başa çatdıraraq nəşriyyata təhvil verdim. Antologiya artıq sizin sərəncamınızdadır.

Babaxan Şərifin də göstərdiyi kimi, ilk dəfə tərtib olunan bu antologiya həcmcə o qədər də böyük deyil. Burada XX əsr özbək poeziyasının ən tanınmış 50 nümayəndəsinin əsərlərindən nümunələr toplanmışdır. Ümid edirik ki, bu şeirlər Azərbaycan oxucularında çağdaş özbək poeziyası haqqında ümumi təsəvvür yaradacaq, ədəbi əlaqələrin xeyli zəiflədiyi indiki dövrdə yaranmış boşluğu qismən də olsa dolduracaq, univer-

sitetlərimizdə tədris olunan türk xalqları ədəbiyyatı fənni üçün əyani vəsaitə çevriləcək.

Biz bu işi silsilə halında davam etdirmək fikrindəyik. «TÜRKSOY kitabxanası seriyası» adını verdiyimiz bu silsilənin ilk əsəri ünlü türkmən şairlərindən Oraz Yağmurun «Qarabağlı ananın ağısı» adlı kitabı oldu. Gələcəkdə Türk Dünyasının ayrı-ayrı yazarlarının əsərlərini nəşr etməklə, bu tipli antologiyalar buraxmaqla ümumtürk mədəniyyətinin təbliğinə və inkişafına, qarşılıqlı şəkildə zənginləşməsinə töhfə verməyə çalışacağıq. Ən böyük arzumuz isə Türk Dünyasının mənəvi birliyinə nail olmaqdır.

Fürsətdən istifadə edərək bu ideyanı ortaya atan TÜRKSOY-a və onun baş direktoru hörmətli Düsen Kaseinova, əziz dostlarım Babaxan Şərifə, Rafiq Babayevə və bu işdə əməyi keçən bütün insanlara öz səmimi minnətdarlığımı bildirmək istəyirəm.

Bütün Türk Dünyasına, qardaş Azərbaycan və özbək xalqlarına, ədəbiyyatlarımıza xeyirli-uğurlu olması arzusu ilə

Ramiz ƏSKƏR.
Bakı, oktyabr 2009-cu il.

İÇİNDƏKİLƏR:

Azadlıq və ədalət bayraqdarı (B.M.Şərif)..... …..3
Çolpan ..... …18
Batu..... …23
Elbək……..26
Qafur Qulam ..... …30
Aybək ..... …34
Uyğun..... …36
Maqsud Şeyxzadə..... …39
Alimcan ..... …41
Mirtemir ..... …43
Osman Nasir ..... …46
Zülfiyyə ..... …48
Şöhrət ..... …51
Şükrulla ..... …53
Cüməniyaz Cabbarov..... …55
Erkin Vahidov ..... …58
Mirəziz Əzəm..... 68
Camal Kamal 73
Abdulla Arifov.....76
Məhəmməd Əli ..... ….82
Aydın Hacıyeva ..... ….85
Aman Mətcan..... ….89
Rauf Pərfi ..... ….95
Həlimə Xudayberdiyeva 101
Mətnəzər Əbdülhəkim 104
Məhəmməd Rəhman 106

Mirpolad Mirzə 110
Osman Əzim 113
Şövkət Rəhman 117
Yoldaş Eşbək 119
Əzim Suyun 123
İkram Atamurad 127
Xurşid Dövran 128
Tursun Əli 130
Tahir Qəhhar 132
Osman Qoçqar 136
Məhəmməd Yusif 139
Mirzə Gəncəbay 145
Törə Mirzə 149
Fəridə Bütəyeva 151
Siracəddin Seyyid 153
Eşqabil Şükür 156
Bəhram Ruziməhəmməd 158
Fəxriyar 159
Qulam Mirzə 163
Səlim Aşur 165
Minxacəddin Mirzə 168
İqbal Mirzə 170
Xasiyyət Rüstəmova 173
Atabəy Rüstəmbəy 175
Bəktemir Pirnəfəsov 177
Son söz (Ramiz Əskər) 179

TÜRKSOY kitabxanası seriyası: 2

ƏRKDƏN SÖYLƏR BU DİLİM
(XX ƏSR ÖZBƏK ŞEİRİ ANTOLOGİYASI)
Bakı, MBM, 2009, 184 s.

Naşir: Rafiq Babayev
Korrektor: Leyla
Texniki redaktor: Ülvi Arif
Kompüterdə yığdı: İradə Əhmədova
Dizayner: Ceyhun Əliyev

Yığılmağa verildi: 20.10.2009
Çapa imzalandı: 20.11.2009
Formatı: 60x84, tiraj: 500
«MBM» MMC mətbəəsində
çap olundu